HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 48 (688) ▪ 11 dekabr 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Xilaskarlıq missiyası



Hər bir xalqın əsrlər boyu zənginləşən dövlətçilik ənənələrinin vahid sistem halına gəlməsi uzunmüddətli təkamül prosesinin nəticəsidir. Yeni yaranmış ictimai-siyasi formasiyalarda isə məhz tarixi məsuliyyəti üzərinə götürən xarizmatik liderlər xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi müqəddəs idealların gerçəkləşməsində həlledici rol oynayır, bununla da özlərinə əbədiyaşarlıq hüququ qazanırlar. Tanrı belə şəxsiyyətlərə həm də xilaskarlıq missiyası verir - zamanın ən sərt sınaqlarından çıxmış bu insanlar müəyyən mərhələdə məsuliyyəti öz üzərlərinə götürərək, bütöv bir millətin tarixən arzuladığı azadlıq, müstəqillik ideyalarını gerçək həyatda reallaşdırmağa nail olurlar. Belə şəxsiyyətlərdən biri də ümummilli liderimiz Heydər Əliyevdir. XX-XXI əsrlərin qovuşuğunda otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi məhz bu dahi və uzaqgörən şəxsiyyətlə - Heydər Əliyevlə bağlı olmuşdur.

1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir. Qısa müddətdə iqtisadiyyat sahəsində nailiyyətlər əldə olunmuş, mədəniyyətin yüksəlişi və milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atılmışdır. O illərdə Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin gücləndirilməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir. Ulu öndərin 1969-1982-ci illərdə gördüyü işlər sonralar milli dövlətçilik ideyasını hərəkətverici qüvvəyə çevirərək, cəmiyyətin bu ideya ətrafında səfərbər olunmasına şərait yaratdı.

Heydər Əliyevin idarəçilik istedadı, tükənməz enerjisi və misilsiz işgüzarlığı 1982-ci ildən SSRİ-nin dövlət başçılarından biri kimi fəaliyyət göstərdiyi və irimiqyaslı layihələrə rəhbərlik etdiyi vaxtlarda özünü xüsusilə parlaq surətdə təzahür etdirmişdir. Həmin dövrdə Heydər Əliyev fenomeni ümumittifaq miqyasında etiraf olunurdu. O, ölkədə baş verən ən ekstremal vəziyyətlərin aradan qaldırılmasının bilavasitə iştirakçısı olması sayəsində dövlətin ən nüfuzlu siyasi xadimlərindən birinə çevrilmişdi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən az sonra - xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində 1993-cü ilin iyununda vətəndaş qarşıdurması ilə üz-üzə qaldığı bir vaxtda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar etdi. Məhz xalqımızın təkidli istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtardı, qanunçuluğu bərpa etdi və cəmiyyəti vahid məfkurə ətrafında birləşdirdi. Dünya şöhrətli dahi şəxsiyyət və müdrik siyasətçi çox qısa müddətdə hakimiyyət boşluğunu aradan qaldırdı, separatçılıq niyyətinə düşənləri, milli dövlətçiliyimizə, müstəqilliyimizə qəsd edən cinayətkar ünsürləri zərərsizləşdirdi, dövlət ilə xalqın birliyini, yekdilliyini təmin etdi. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə milli birliyin təmin edildiyi günü xalq özünün əsl xilaskarı şərəfinə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş Günü kimi yazmışdır.

Lakin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salmaq, bundan öz mənfəətləri naminə istifadə etmək istəyən daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlərin göstərilməsi müstəqil dövlətçiliyimiz üçün növbəti sınaqlar oldu. Ulu öndər Heydər Əliyevin qətiyyəti və xalqın öz qüdrətli liderinin ətrafında yumruq kimi birləşməsi nəticəsində bu təhlükəli cəhdlərin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirməklə hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyuldu.

1995-2003-cü illər Azərbaycanın demokratik və liberal prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla, dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, gərgin zəhməti və təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi.

Ulu öndərimizin ölkəyə rəhbərliyi dövründə istər dövlət quruculuğu prosesində, istərsə də sosial-iqtisadi, mədəni inkişafda möhtəşəm nailiyyətlər qazanılmışdır. Onun gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirmişdir.

Ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması olmuşdur. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırmış, respublikamız demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir.

Bu gün xalqımız ümummilli lider Heydər Əliyevin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Dərin inam hissi ilə deyə bilərik ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin Azərbaycanın rifahı və xoşbəxt gələcəyi naminə həyata keçirməyə başladığı taleyüklü məsələləri xalqımızın dəstəyi ilə uğurla həll edir, ulu öndərin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti və diqqətəlayiq nailiyyətləri ilə daha da zənginləşdirir.

Həyatının hər anını bütün dəyərlərdən uca tutduğu xalqına qurban verən, ömrünü millətinin xoşbəxt gələcəyinə həsr edən, millətlərin içərisində millətinin səsinin eşidilməsini yaşam mənası hesab edən Heydər Əliyev uzun illər arzularında yaşatdığı dövləti - müstəqil Azərbaycanı qurdu və gələcək nəsillərə əvəzsiz bir miras olaraq qoyub getdi. Lakin əminliklə deyə bilərik ki, dünən olduğu kimi, bu gün də, sabah da ulu öndər Heydər Əliyev bizimlədir və hər zaman da bizimlə olacaq.

**Anar ƏLİYEV**

## Böyük və şərəfli həyat yolu

*Moldovanın populyar qəzetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında böyük məqalə dərc edilmişdir.*

Moldovada çıxan «Ekspert novostey» adlı populyar, müstəqil sosial-analitik qəzetin 6 dekabr tarixli nömrəsində «Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir» sərlövhəli geniş məqalə dərc edilmişdir. Bu barədə AzərTAc-a Azərbaycanın Kişineudakı səfirliyindən məlumat verilmişdir.

Məqalə Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin vəfatının 10-cu ildönümünə həsr edilmişdir. Məqalədə Heydər Əliyevin böyük və şərəfli həyat yolu ilə bağlı faktlar əsasında müstəqil Azərbaycanın təşəkkül və çiçəklənmə mərhələlərindən bəhs edilir.



ИСТОРИЯ СОВРЕМЕННОСТИ

12 ДЕКАБРЯ - ГОДОВЩИНА СМЕРТИ ГЕЙДАРА АЛИЕВА

Гейдар Алиев – общенациональный лидер азербайджанского народа

Гениальной личности Гейдару Алиеву, которому принадлежит исключительное место в истории азербайджанской государственности, в этом году исполнилось 90 лет со дня рождения. И в этом же году, 12 декабря исполняется 10 лет со дня смерти Общенационального Лидера азербайджанского народа.

## Azərbaycan-Pakistan əməkdaşlığı strateji xarakter daşıyır

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İkramullah Məhsudu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

Azərbaycan ilə Pakistanın qardaş və dost ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı siyasi əlaqələrimizin yüksək səviyyədə davam etdiyini demişdir. Ölkələrimizin bir-birini bütün beynəlxalq təşkilatlarda dəstəkləməsinin önəmini qeyd edən Prezident İlham Əliyev əməkdaşlığımızın gələcək illərdə də uğurla inkişaf etdiriləcəyinə əminliyini bildirmiş, iki ölkə arasında münasibətlərin regional əməkdaşlığın inkişafında da əhəmiyyətli rol oynadığını demişdir. Səfirə Azərbaycandakı diplomatik fəaliyyətinə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev ona gələcək işlərində də uğurlar arzulamışdır.

Səfir İkramullah Məhsud ölkələrimiz arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulamışdır. O, əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əminliyini ifadə etmişdir. Pakistanlı səfir ölkəmizdəki diplomatik fəaliyyətinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.



2 Audit və operativ nəzarət məsələləri üzrə videomüşavirə keçirilmişdir

3 Vergi cinayətlərinə görə cəzaların sərtləşdirilməsinə ehtiyac var

4 Nəzarət-kassa aparatlarının tətbiqinə cəmiyyət maraqlı olmalıdır

5 Rəqabət Məcəlləsinin qəbulu yeni sərmayə axını cəlb edəcək

# Audit və operativ nəzarət məsələləri üzrə videomüşavirə keçirilmişdir

Vergilər Nazirliyində audit və operativ nəzarət strukturları tərəfindən 2013-cü ilin yanvar-oktyabr ayları ərzində görülmüş işlərin yekunları və bu sahələrdə qarşıda duran vəzifələrə həsr olunmuş videomüşavirə keçirilmişdir. Vergilər nazirinin müşaviri, baş vergi xidməti müşaviri İlqar Əhmədovun sədrliyi ilə keçirilmiş tədbirdə nazirliyin Audit Baş İdarəsinin və Operativ nəzarət idarəsinin rəisləri, rəis müavinləri, şöbə rəisləri və audit və operativ nəzarət sahələri üzrə müşavir xidməti bölməsinin rəisi, eləcə də yerli vergi orqanlarının rəisləri, rəis müavinləri, audit və operativ nəzarət şöbələrinin rəisləri iştirak etmişlər.

Videomüşavirədə 2013-cü ilin yanvar-oktyabr ayları ərzində aparılmış səyyar vergi yoxlamaları və operativ nəzarət sahəsində görülmüş işlər, nəzarət tədbirlərinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) daxil edilməsində nəzərdə tutulan yeniliklər və bu tədbirlərin Ədliyyə Nazirliyində qeydiyyata alınması sahəsindəki bəzi ləngimələr, obyektlərdə quraşdırılmış POS-terminallardan istifadə olunmasına nəzarət və vergi orqanlarının nəzarət əhatəsinə aid ərazilərdə fəaliyyət göstərən vergi ödəyicilərinə vergi nəzarəti məsələləri müzakirə edilmişdir.

Tədbir iştirakçılarına yerli vergi orqanları tərəfindən həyata keçirilmiş nəzarət işlərinin vəziyyəti, səyyar vergi yoxlamaları, yoxlamalar nəticəsində hesablanmış əlavə vəsaitin və tətbiq edilmiş maliyyə sanksiyalarının məbləğləri, onların büdcəyə alınması vəziyyəti barədə ətraflı məlumat verilmişdir. Müşavirə zamanı vergi orqanlarının operativ nəzarət strukturları tərəfindən həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri, bu yoxlamalar üzrə vergi ödəyicilərindən daxil olmuş şikayətlər, onlara baxılmasının vəziyyəti müzakirə olunmuşdur. Xüsusilə vergidən yayınmanın qarşısının alınması üçün həyata keçirilən operativ vergi nəzarəti tədbirləri və xronometraj metodu ilə aparılan müşahidələrin vacibliyi ilə yanaşı, bu tədbirlərin həyata keçirildiyi təsərrüfat subyektlərinin düzgün müəyyən edilməsinin zəruriliyi qeyd olunmuşdur.

Eyni zamanda, videomüşavirədə ərazi vergi orqanlarının nəzarət əhatəsində olan ərazilərdə yerləşən obyektlərdə quraşdırılmış POS-terminalların işlək vəziyyətdə olub-olmaması, bu sahədə görüləcək işlər də müzakirə olunmuş, ölkənin maliyyə sistemində şəffaflığın artırılması məqsədilə nağdsız hesablaşmaların səviyyəsinin yüksəldilməsinə ciddi fikir verilməsinin vacibliyi bildirilmişdir.

Audit və operativ nəzarət sahələri üzrə nazirin müşaviri, baş vergi xidməti müşaviri İ.Əhmədov 2013-cü ilin yanvar-oktyabr ayları ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə yoxlamaların sayı, yoxlama ilə əhatə edilmiş dövriyyələr və aktla hesablamanın yoxlanılmış dövriyyədə xüsusi çəkisi azalan, operativ nəzarət tədbirləri və xronometraj metodu ilə aparılan müşahidələrin sayında azalmalar olan, həmçinin aktla hesablanmış vəsaitin ödənilməsində və risk meyarları üzrə xüsusi çəkisi aşağı olan ərazi vergi orqanlarına qısa müddət ərzində bu halların səbəbləri barədə məlumat verilməsi və azalma hallarının ilin sonunadək aradan qaldırılması barədə müvafiq tapşırıqlar vermişdir.

Qeyd olunmuşdur ki, audit və operativ nəzarət tədbirləri zamanı hesablanmış vergilərin və müvafiq sanksiyaların dövlət büdcəsinə ödənilməsi, vergi ödəyicilərinin risk meyarları üzrə yoxlanılması və bu kimi digər mühüm məsələlər daim Vergilər Nazirliyi tərəfindən nəzarətdə saxlanılacaqdır.

# Daxili auditin nəticələri müzakirə olunmuşdur

Vergilər Nazirliyində vergi orqanlarının hüquq strukturlarının nümayəndələrinin iştirakı ilə «Vergi nəzarəti tədbirlərinin məhkəmələrdə mübahisələndirilməsi zamanı hüquqi müdafiənin səmərəliliyinin artırılması, cinayət xarakterli materialların və imzalanmasından imtina olunmuş səyyar vergi yoxlaması aktlarının hüquqi ekspertizası zamanı aşkar olunan nöqsanlar, hüquqi fəaliyyət sahəsi üzrə aparılmış daxili auditin nəticələri» mövzusunda videomüşavirə keçirilmişdir.

Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva noyabr ayında Ali Məhkəmənin hakimləri ilə keçirilmiş işgüzar görüşlər barədə məlumat vermişdir. Müşavirədə cinayət xarakterli materialların hüquqi ekspertizası rast gəlinən tipik nöqsanlar barədə bildirilmişdir ki, belə nöqsanlara imtina aktının müəyyən edilmiş formada tərtib edilməməsi, ekspert və mütəxəssis müqavilələrinin tələblərə cavab verməməsi, vergi borcuna dair aktın bəzi hissələrinin boş saxlanılması, hesablamanı təsdiq edən sənədlərin toplanmaması, hesablamanın əsaslandırılmaması, vergi nəzarətinin nəticəsi barədə aktın tələblərə uyğun tərtib edilməməsi kimi məsələlər daxildir.

Videomüşavirədə cavabdeh qismində məhkəmə işlərinin araşdırılması zamanı ortaya çıxan bəzi problemlər də müzakirə olunmuş, məhkəmə qətnamə və qərardadlarının vaxtında əldə olunması və digər məsələlərlə bağlı tövsiyələr dinlənilmişdir.

**tacrüba mübadilasi**

## Vergi ödəyicilərinə xidmət sahəsi ilə tanışlıq

Azərbaycan Respublikasının Vergilər Nazirliyinin nümayəndələri Böyük Britaniyanın Mançestr şəhərində səfərdə olmuşlar. Səfər zamanı Birləşmiş Krallığın Gəlir və Gömrük İdarəsi nümayəndələri arasında Çağrı Mərkəzində müştəri xidməti və şikayətlərin idarə olunması, tələb və treninq, hesabatlar, proqnozlaşdırma, planlaşdırma, real vaxtda idarəetmə, İVR sistemi, zənglərin idarə olunması, növbədə gözləyən zənglərlə iş, Çağrı Mərkəzində sağlamlıq və təhlükəsizlik mövzularında müzakirələr aparılmışdır.

Birləşmiş Krallığın Gəlir və Gömrük İdarəsinin nümayəndələrinə Azərbaycan Respublikasının vergi sistemi, Vergilər Nazirliyinin Çağrı Mərkəzi, internet səhifəsi, vergi növləri, vergi sistemi və aparılan təbliğat və maarifləndirmə işləri ilə bağlı bukletlər və digər nəşrlər təqdim edilmişdir.

Təcrübə mübadiləsi səciyyəsi daşıyan tədbirdə Azərbaycanı Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin Telefon-məlumat şöbəsinin rəisi Məhəmməd Yunusov və Xüsusi Rejimli Vergi Xidməti Departamentinin İqtisadi təhlil şöbəsinin əməkdaşı Nicat Mehdiyev təmsil etmişlər.

## OECD-nin işçi qrupunun iclası

Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının işçi qrupunun növbəti iclasında ayrı-ayrı ölkələrin nümayəndələri tərəfindən vergi siyasətinin əsas istiqamətləri müzakirə edilmişdir. Müzakirələr zamanı diqqət ƏDV üzrə qanunvericiliyin təhlili, müxtəlif ölkələrdə tətbiq olunan ƏDV-nin diferensial dərəcələri, ayrı-ayrı ölkələr, xüsusilə İtaliya təcrübəsində vergi gəlirləri və xərcləri barədə müqayisəli göstəricilər, əmək haqqından gəlir vergisinin müasir qanunvericilik və inzibatçılıq qaydaları və digər məsələlər üzərinə yönəldilmişdir. İşçi qrup tərəfindən optimal vergi dərəcələrinin müəyyən olunması, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrin ƏDV, mənfəət vergisi, gəlir vergisi üzrə vergi dərəcələrinin proqressiv şkalasının müəyyən edilməsi sahəsində təcrübələri qeyd olunmuşdur. İclasda Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi Telman Hüseynli iştirak etmişdir.

## IOTA-nın növbəti seminarı keçirilmişdir

Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) təşkilatçılığı ilə Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində keçirilmiş «Yeni fəaliyyətə başlamış sahibkarlıq subyektlərinə dəstəyin göstərilməsi» mövzusunda seminarda Polşa, Estoniya, Niderland, İtaliya, Litva, İrlandiya, Finlandiya və Azərbaycan vergi administrasiyalarının nümayəndələri tərəfindən təqdimatlar edilmişdir.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin Monitorinq şöbəsinin baş dövlət vergi müfəttişi Maya Əliyarzadənin təqdimatı Azərbaycan vergi administrasiyasının vergi ödəyicilərinə xidmət sahəsində əldə edilmiş nailiyyətlərə həsr olunmuşdur. Təqdimat zamanı vergi ödəyicilərinin «bir pəncərə» prinsipi əsasında qeydiyyatı, hüquqi və fiziki şəxslərin onlayn qeydiyyatı, «Asan İmza» layihəsi və onun üstünlükləri, vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən göstərilən xidmətlər və bu sahədə islahatlar, Çağrı Mərkəzi və onun xidmətləri, internet səhifələri, o cümlədən Facebook və Twitter sosial şəbəkələrdəki səhifələr, Vergilər Nazirliyi tərəfindən göstərilən e-xidmətlər, «Vergi dostları» layihəsi və gələcək prioritet istiqamətlər barədə ətraflı məlumat verilmiş, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

## Dolayı vergilər: ƏDV və aksizlər

Vyana şəhərində IFC (Beynəlxalq Maliyyə Korporasiyası), Ernst & Young şirkəti, Avstriya İqtisadiyyat və Biznes Akademiyası, İctimai Maliyyə Akademiyasının təşkilatçılığı ilə seminar keçirilmişdir. İştirakçılara ƏDV haqqında ümumi nəzəri məlumatlar verilərək, onun iqtisadi mahiyyəti və hüquqi aspektləri izah edilmiş, ƏDV yükünün paylanması müzakirə olunmuşdur. ƏDV inzibatçılığı məqsədilə ən qabaqcıl texnologiyaların tətbiq edilməsi zərurəti qeyd olunaraq bildirilmişdir ki, bu sistemə qoyulan investisiyalar tezliklə özünü doğruldacaq. Azərbaycanda tətbiq olunan ƏDV depozit sistemi haqqında məlumat MDB ölkələri üzvləri nin diqqətini xüsusilə cəlb etmişdir. Müzakirələr zamanı aksiz vergisinin iqtisadi mahiyyəti izah olunaraq, bu vergi növü ilə bağlı qarşıda duran problemlər haqqında danışılmış, aksizlərin tətbiqi problemləri, spirtli içkilərin və tütün məmulatlarının vergiyə cəlb edilməsi xüsusiyyətləri araşdırılmışdır. Tədbirdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Zaur Quliyev iştirak etmişdir.

# Vətəndaş müraciətlərinin statistik mənzərəsi

2013-cü ilin noyabr ayı ərzində dövlət vergi orqanlarına cəmi 4095 müraciət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 979 müraciət və ya 19,3% azdır. Daxil olmuş müraciətlərdən 4014-ü (98%-i) ərizə, 73-ü (1,8%-i) şikayət, 8-i (0,2%-i) təklif olmuşdur. Müraciətlərin 33,7%-i müxtəlif arayışların alınması, 25,3%-i kameral vergi yoxlamaları, 9,5%-i vergi borcları, 8,4%-i səyyar vergi yoxlamaları, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i korrupsiya hüquqpozmaları, 22,7%-i digər məsələlərlə bağlıdır. Vergi orqanlarına daxil olmuş şikayətlərin 26-sı eyni, 5-i təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 42 məsələ barədədir. Daxil olan faktiki şikayətlərin sayı ötən ilin noyabr ayına nisbətən 17 ədəd və ya 28,8% azalmışdır.

Ay ərzində nazirliyin aparatına 430 müraciət, o cümlədən 369 ərizə, 61 şikayət daxil olmuşdur. Şikayətlərin 26-sı eyni, 5-i təkrardır, yəni faktiki olaraq cəmi 30 məsələ ilə bağlıdır. Ötən ilin noyabr ayı ilə müqayisədə nazirliyin aparatına daxil olan müraciətlərin ümumi sayı 74 ədəd (20,8%) artmış, şikayətlərin faktiki sayı 15 ədəd (33,3%) azalmışdır. Vətəndaşların qəbulu şöbəsində 45 vətəndaş qəbul edilmişdir.

# Çağrı Mərkəzinə daxil olan müraciətlər

2013-cü ilin yanvar-noyabr aylarında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi tərəfindən 226 min 488 müraciət cavablandırılmış, vergi ödəyicilərinə 552 min 505 sayda mesaj göndərilməklə onların məlumatlandırılması təmin edilmişdir. Daxil olmuş müraciətlərin 163 min 612-si canlı rejimdə müfəttiş-operatorlar, 62 min 876-sı səsli menyu vasitəsilə elektron operator tərəfindən cavablandırılmışdır. Müfəttiş-operatorların cavablandırdıqları suallar arasında vergi növləri (12,5%), elektron xidmətlər (27,5%), hesabatlar və onların doldurulma qaydaları (8,4%), qeydiyyat (11,4%) barədə suallar, səsli menyu vasitəsilə qəbul edilmiş müraciətlər arasında isə vergi növləri (45,6%) və dövlət büdcəsinə olan vergi borcları (29,1%) barədə müraciətlər üstünlük təşkil etmişdir.

Hesabat dövrü ərzində canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılmış müraciətlərin sayı 2012-ci ilin müvafiq dövrünə nisbətən 27,% artmışdır. Ötən dövr ərzində vətəndaşlardan şikayət (ərizə) və məlumat xarakterli 1365 müraciət qəbul edilərək aidiyyəti üzrə göndərilmişdir.

Canlı rejimdə vergi ödəyicilərindən daxil olan sual xarakterli müraciətlərin 98%-i müfəttiş-operatorlar tərəfindən dərhal, 2%-i isə sual vərəqəsi tərtib edilərək araşdırıldıqdan sonra cavablandırılmışdır. Müraciətlərin 72,6%-i Bakı şəhərindən, 14,1%-i ölkənin müxtəlif bölgələrindən, qalanı isə mobil operatorlardan daxil olmuşdur.

# Ödəniş sistemlərinin təhlükəsizliyi ilə bağlı fəaliyyət planı

*Azərbaycanda elektron xidmətlərin və informasiya texnologiyalarının son modellərinin tətbiqinin genişlənməsi bu sahədə çevik və dinamik idarəetməni təmin etməklə yanaşı, etibarlı təhlükəsizlik sisteminin yaradılmasını da zəruriləşdirir.*




Son dövrlər elektron ödəniş vasitələrinə tələbatın artması bu sistemin təhlükəsizliyinə ehtiyacı artırıb. Azərbaycan hökuməti bu məqsədlə kibertəhlükəsizlik sahəsində beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığı gücləndirməyi qərara alıb. Respublikamızda kibercinayətkarlıqla mübarizə sahəsində Beynəlxalq Telekommunikasiya İttifaqı ilə yeni əməkdaşlıq planı hazırlanıb. Qurumun baş katibi Hamadun Ture bildirib ki, birgə mübarizə tədbirləri internet resurslarından istifadəyə yeni nəzarət mexanizmlərinin, digər İKT texnologiyaları şəbəkələrinin etibarlı mühafizə sistemlərinin yaradılmasını nəzərdə tutur.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin şöbə rəisi İlqar Abdullayevin sözlərinə görə, Azərbaycanda informasiya təhlükəsizliyi siyasətinin təmin olunması və bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi fəaliyyət göstərir. Agentlik informasiya-telekommunikasiya sistemlərinin və şəbəkələrinin, idarələrarası elektron sənəd dövriyyəsinin, dövlət orqanlarının internet şəbəkəsi ilə əlaqəsinin, onların internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsinin təşkilini, təhlükəsizliyini və inkişafını təmin edir. İnformasiya təhlükəsizliyinin lazımi səviyyədə təmin olunması dövlətin, bütövlükdə cəmiyyətin maraqlarına xidmət edir. Son illər qlobal informasiya cəmiyyətinin formalaşması nəticəsində dövlətlərarası ziddiyyətlər və münaqişələr virtual məkana da keçib. Qloballaşan dünyada informasiya texnologiyalarının yaratdığı imkanlardan sui-istifadə etməklə cinayətin yeni növləri yaranır, dövlətin ərazi bütövlüyü ilə bağlı məlumatlar təhrif olunur, terrorizm ideologiyasının təbliğ edilməsi və terror aktlarının planlaşdırılması üçün internet şəbəkəsindən fəal şəkildə istifadə olunur. Bu gün informasiya təhlükəsizliyinə təhdidlər çox ciddi mərhələyə keçmişdir. Bu təhlükəli amilə qarşı mübarizə aparmaq üçün bütün dünya birliyinin fəal səylərinin birləşdirilməsi, habelə müasir təhdidlərin aradan qaldırılması və qarşısının alınması probleminə yeni strateji yanaşmanın formalaşdırılması zəruridir. İnformasiyanın artmaqda olan əhəmiyyəti qarşılıqlı informasiya təsiri proseslərinin tənzimlənməsinin təmin olunması üçün dövlətin fəal müdaxiləsini tələb edir. Mütəxəssislər hesab edirlər ki, son illər Azərbaycanda «Elektron hökumət» vasitəsilə əhaliyə müxtəlif elektron xidmətlərin göstərilməsinin miqyasının genişlənməsi də təhlükəsizlik sisteminin gücləndirilməsinə diqqəti artırmağı zəruri edir. Hazırda dünyanın bir sıra ölkələrində kibercinayətkarların maliyyə, bank, sığorta, qiymətli kağızlar, elektron biznes sistemlərinə daxil olaraq onların maliyyə vəsaitlərini ələ keçirməsi hallarına rast gəlinir. Elektron ödəniş sistemlərinə, xüsusilə də bankomatlara müdaxilə hallarının qarşısının alınması dünyanın ən nüfuzlu şirkətlərinin birgə mübarizəyə dair fəaliyyət planında əsas yer tutur. Xüsusilə də ödəniş kartları ilə fırıldaqçılıq hallarının qarşısının alınması tədbirlər planında başlıca istiqamət təşkil edir. Azərbaycan dövləti bu sahədə öz səylərini artırmağı zəruri sayır. Bu məsələ RİTN-lə yanaşı, Mərkəzi Bank, Vergilər Nazirliyi, e-ödəniş şirkətləri, banklar, prosessinq şirkətləri üçün də ciddi əhəmiyyət kəsb edir. Ödəniş sistemlərinə müdaxilə hallarının qarşısının alınması məqsədilə mövcud infrastruktur imkanlarının artırılması, eləcə də banklar, prosessinq mərkəzləri, iri ticarət sistemləri, ödəniş şirkətləri və hüquq-mühafizə orqanlarının əlaqəli fəaliyyəti istiqamətində tədbirlər görülməkdədir.

Birgə fəaliyyət planına əsasən, ödəniş sistemlərinə nəzarət alətləri gücləndiriləcək və yeni texnologiyalar tətbiq olunacaq. Ödəniş sistemlərinin etibarlılığının və təhlükəsizliyinin, habelə bank informasiyasının mühafizəsinin təmin edilməsi və ödəniş kartları ilə fırıldaqçılığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, yeni çip texnologiyalarına tam keçidin təmin olunması, kart infrastrukturunun təhlükəsizliyinin tədricən ən son dünya standartlarına uyğunlaşdırılması əsas hədəflərdəndir.

Mərkəzi Bank və RİTN hesab edir ki, yeni nəzarət sistemlərinin tətbiq olunması informasiya sistemləri infrastrukturunun daha etibarlı mühafizəsinə, İKT texnologiyalarından, elektron xidmətlərdən, mobil ödəniş vasitələrindən istifadə imkanlarının genişlənməsinə şərait yaradacaq.

**Elbrus CƏFƏRLİ**

# Vergi cinayətlərinə görə cəzaların sərtləşdirilməsinə ehtiyac var



*Vergilər Nazirliyi vergi ödənişlərini dövlət büdcəsinə vaxtında və tam ödəməyən vergi ödəyicilərini mütəmadi olaraq məlumatlandırır, onlara xəbərdarlıqlar göndərir. Buna baxmayaraq, bəzi vergi ödəyiciləri külli miqdarda vergiləri dövlət büdcəsindən yayındırmaqla ağır vergi cinayətlərinə yol verirlər. Belə hallara qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər haqqında məlumat almaq üçün Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin (VCİAD) rəisi, üçüncü dərəcəli dövlət ədliyyə müşaviri Vidadi Məmmədova müraciət etdik.*

**- Vidadi müəllim, artıq il başa çatmaq üzrədir. Bu il vergi hüquqpozmaları ilə bağlı ümumi mənzərə necə olmuşdur?**

- Vergilər Nazirliyi sistemində çevik və operativ nəzarət mexanizminin yaradılması, tətbiq edilməsi və vergiləri ödəməkdən yayınma hallarının qarşısının alınması sahəsində kompleks tədbirlərin həyata keçirilməsi büdcə daxilolmalarının artmasına öz müsbət təsirini göstərmişdir. Departamentimiz vergi hüquqpozmalarına yol vermiş şəxslərin ifşa edilərək məsuliyyətə cəlb olunması, dövlətə vurulmuş ziyanın ödətdirilməsi sahəsində xeyli işlər görmüşdür. Cari ilin on ayı ərzində 426 cinayət işi açılmışdır ki, bu da 2012-ci ilin eyni dövrü ilə müqayisədə 79 iş çoxdur. Cinayət işləri üzrə araşdırmaların nəticələri ilə bağlı 94 təqsirləndirilən şəxs barəsində 93 iş məhkəməyə göndərilmişdir. Həmçinin 216 işin icraatına xitam verilmişdir ki, bunların da 136-sı üzrə maddi ziyanın tam ödənilməsinə görə Azərbaycan Respublikası CPM-in 39.1.11-ci maddəsi ilə qərarlar qəbul edilmişdir. Keçirilmiş əməliyyat tədbirləri nəticəsində axtarışda olan 25 nəfərin tutulub VCİAD-in İstintaq idarəsinə təqdim olunması təmin edilmişdir.

**- Vergi ödəyiciləri tərəfindən əsasən hansı fəaliyyət sahələri və tədiyyə növləri üzrə vergi cinayətlərinə yol verilir?**

- Departamentdə bütün sahələr və tədiyyə növləri üzrə baş verən vergidən yayınma hallarının səbəbləri mütəmadi olaraq araşdırılır, təhlil edilir. Bu təhlillərin nəticələri onu göstərir ki, son vaxtlar icarə, istehsal, tikinti, tikinti materiallarının alqı-satqısı, ixtisaslaşdırılmış məhsulların (ərzaq, məişət və digər) topdan və pərakəndə alqı-satqısı sahəsində daha çox qanun pozuntularına yol verilmişdir. İl ərzində departamentin icraatında icarə (16 iş), istehsal (27 iş), tikinti (113 iş), tikinti materiallarının alqı-satqısı (26 iş), ixtisaslaşdırılmış məhsulların (ərzaq, məişət və digər) topdan və pərakəndə alqı-satqısı (201 iş) sahələrində vergidən yayınma hallarına dair cinayət işləri olmuşdur.

Vergi tədiyyələri üzrə bölündükdə isə vergilərin yayındırılması halları, əsasən, ƏDV (74,03%), mənfəət vergisi (14,8%), sadələşmiş vergi (4,2%), gəlir vergisi (3,8%), ödəmə mənbəyində tutulan vergi (2,5%) üzrə müəyyən olunmuşdur.

**- Belə görünür ki, vergidən yayınmaq istəyən vergi ödəyiciləri əsasən ƏDV fırıldaqçılığı ilə məşğul olmağa çalışırlar. Bu sahədə hansı tədbirlər görülür?**

- ƏDV fırıldaqçılığı, əsasən, ƏDV depozit hesabında olan vəsaitlərin hərəkətinə yönəldilərək, bir çox hallarda əmtəəsiz əməliyyatların aparılması ilə müşahidə olunur. Belə əməliyyatlar, bir qayda olaraq, iki və ya daha artıq şəxslərin birgə iştirakı ilə baş verir. Başqa sözlə, rəsmiyyətdən gizlədilən nağd qaydada aparılmış əməliyyatlardan ödənilməli olan vergilər iştirakçılar arasında müvafiq razılaşma ilə bölündükdən sonra gizlədilmiş dövriyyənin örtbasdır edilməsi üçün saxta sənədləşmələr tərtib edilir və ƏDV depozitində olan vəsaitlər dövlət büdcəsinə ödənilməyərək əsassız olaraq əvəzləşmə əməliyyatlarına yönəldilir. Bu tip yayınmalar, adətən, zahirən görünməsə də sənədli yoxlamalar və istintaq prosesində ifşa edilməklə günahkar şəxslərin əməllərinə hüquqi qiymət verilir.

Bu növ cinayətlərə qarşı mübarizə sahəsində VCİAD-ın zəngin təcrübəsi vardır. Əldə etdiyimiz göstəriciləri daim təhlil etməklə konkret addımlar atırıq. Bu ilin on ayı ərzində departamentin araşdırdığı 133 cinayət işi ƏDV fırıldaqçılığı ilə bağlı olmuşdur ki, bunlardan 98-i səyyar vergi yoxlaması, 35-i isə vergi borcu materialları əsasında başlanmış işlərdir. Həmin işlərdən 40-ı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmişdir.

**- Vergi cinayətlərinin ibtidai araşdırmaları zamanı həyata keçirilən tədbirlər nəticəsində dövlət büdcəsinə vəsaitlərin alınması necə təmin edilir?**

- Vergi-hüquq münasibətlərinin nizama salınmasının son məqsədi vergilərin büdcəyə ödənilməsini təmin etməkdir. Cari ilin on ayı ərzində cinayət işləri və materiallar üzrə aparılan araşdırmalar zamanı müəyyən edilmişdir ki, dövlət büdcəsinə ödənilməsi təmin olunmuş vəsaitin məbləği keçən ilin müvafiq dövrünə nisbətən 3,2 dəfə artaraq 30 milyon 423,9 min manat təşkil etmişdir ki, bunun da 23 milyon 726,3 min manatı istintaqı tamamlanmış cinayət işləri üzrə, 955,7 min manatı cinayət işinin başlanması rədd edilmiş materiallar üzrə, 5 milyon 741,9 min manatı isə istintaqı davam etdirilən cinayət işləri üzrə ödənişlərdir.

**- Vergi hüquqpozmaları üçün nəzərdə tutulan cəzaların hüquqi şərtləri barədə nə deyə bilərsiniz?**

- Vergi qanunvericiliyinin pozulmasına görə mövcud olan məcburiyyət tədbirlərini iki kateqoriyaya bölmək olar. Birincisi, vergi öhdəliklərinin yerinə yetirilməməsi və vergilərin vaxtında və tam şəkildə ödənilməməsi nəticəsində büdcəyə vurulan ziyanla bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulan maliyyə sanksiyaları və inzibati cərimələrdir.

Məcburiyyət tədbirlərinin ikinci kateqoriyasına isə xeyli və külli miqdarda vergiləri ödəməkdən yayındırmağa görə nəzərdə tutulan cəza tədbirləri aiddir ki, bunlar da Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə tənzimlənir. 2000-ci ildə qəbul olunmuş Cinayət Məcəlləsində vergiləri ödəməkdən yayınma əməlləri ilə bağlı yalnız üç maddə - «Qanunsuz sahibkarlıq» (192-ci maddə), «Yalançı sahibkarlıq» (193-cü maddə) və «Vergi ödəməkdən yayınma» (213-cü maddə) nəzərdə tutulduğu halda, 20 iyun 2003-cü ildə yeni bir maddə - «Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan xeyli miqdarda satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə» (213-1-ci maddə) və 31 may 2007-ci ildə «Saxta aksiz markalarını hazırlama, əldə etmə və ya satma» (205-1-ci maddə) maddələri qəbul olunmuşdur. Cinayət Məcəlləsi ilə (maddə 213) xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayətinə görə yüksək cəza həddi 3 il müddətə azadlıqdan məhrumetmə nəzərdə tutulmuşdur. Eyni əməllər mütəşəkkil dəstə tərəfindən və ya külli miqdarda törədildikdə yüksək cəza həddi kimi 7 il müddətə azadlıqdan məhrumetmə nəzərdə tutulmuşdur. Məcəllənin tələblərinə görə, vergiləri ödəməkdən yayınma cinayətini ilk dəfə törətmiş şəxs vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad olunur.

Müqayisə üçün qeyd etmək olar ki, Rusiya Federasiyasının Cinayət Məcəlləsində külli miqdarda vergiləri ödəməkdən yayınma cinayətinə görə 2 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulmuşdur. Xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma cinayətinə görə yüksək cəza həddi kimi 6 il azadlıqdan məhrumetmə nəzərdə tutulur. Hər iki maddənin «qeyd» hissələrini müqayisə etsək, görərik ki, bizim ölkədə cinayət əməlini ilk dəfə törətmiş şəxs yalnız ödəməkdən yayındırdığı məbləği (Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş cərimə sanksiyaları və faizlər istisna olmaqla) ödədiyi halda cinayət məsuliyyətindən azad olunur. Rusiyada isə şəxsin cinayət məsuliyyətindən azad olunması üçün ödəməkdən yayındırdığı məbləğin tam şəkildə, yəni Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş cərimə sanksiyaları və faizlər daxil olmaqla ödənilməsi tələb olunur.

Təcrübə göstərir ki, istintaqı aparılan cinayət işləri üzrə cinayət məsuliyyətindən azad olunmaq üçün şəxs yalnız yayındırılmış vergi məbləğini dövlət büdcəsinə ödəməklə cinayət təqibindən azad olur. Bununla belə, ödənilməkdən yayındırılmış vergilərdən əlavə, cinayət işləri üzrə Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq hesablanmış cərimə sanksiyaları və faizlərin ödətdirilməsi mülki qanunvericiliklə müəyyənləşdirildiyindən, vergi ödəyiciləri tərəfindən belə ödəmələr qəsdən uzadılır və əksər hallarda ödənilməmiş qalır.

Mənə elə gəlir ki, bu sahədə qanunvericiliyin daha da təkmilləşdirilməsi və ümumiyyətlə, vergiləri ödəməkdən yayınma əməlləri ilə bağlı cinayətlərə görə cəzaların daha da sərtləşdirilməsi məsələsinə baxmağa ehtiyac vardır.

***Müsahibəni hazırladı:***
**Rəşad SADIQOV**

# «BakuTel -2013» sərgisində Vergilər Nazirliyinin pavilyonu nümayiş olunmuşdur

**Bakı Ekspo Mərkəzində telekommunikasiya və informasiya texnologiyaları sahəsində keçirilmiş Xəzər və Qafqaz regionlarının ən böyük tədbiri - «BakuTel-2013» sərgisində yüksək texnologiyalar üzrə əldə olunan nailiyyətlər nümayiş etdirilmişdir.**

Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi ilə keçirilən sərgidə, əvvəlki illərdə olduğu kimi, yüksək nüfuzlu beynəlxalq və sahəvi qurumların, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT), Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU) və Regional Rabitə Birliyinin (RRB), habelə Ümumdünya Sərgi Sənayesi Assosiasiyasının (UFI) nümayəndələri iştirak etmişlər.

Dünyanın 28 ölkəsindən 300 şirkəti bir araya gətirən «BakuTel-2013» sərgisinin bütün ekspozisiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2013-cü ilin ölkəmizdə «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi xüsusi nəzərə çarpırdı. Sərgidə əhaliyə göstərilən dövlət xidmətlərinin təqdim olunması üçün yaradılmış «ASAN xidmət» mərkəzlərinin fəaliyyəti də nümayiş etdirilmişdir.




Vergilər Nazirliyi də «BakuTel-2013» sərgisində öz pavilyonu ilə iştirak etmişdir. Sərginin keçirildiyi müddətdə nazirliyin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşları tərəfindən tədbir iştirakçılarını maraqlandıran suallara cavab verilmiş, çoxlu sayda məlumatlandırıcı, maarifləndirici materiallar və nəşrlər paylanmışdır.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

Rakurs

## Vergi mübahisələrinin minimuma endirilməsi – vergi inzibatçılığının əsas hədəflərindəndir

Vergi mübahisələri, adətən, vergi qanunvericiliyinin tətbiqi məsələlərinə yanaşmada vergi ödəyiciləri ilə vergi orqanları arasında fikir ayrılığının meydana çıxması və vergi nəzarətinin həyata keçirilməsi zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyin tələblərinə zidd olan hərəkətləri (hərəkətsizliyi) nəticəsində yaranır.

Ümumiyyətlə, beynəlxalq təcrübədə vergi ödəyiciləri ilə vergi orqanları arasında vergi mübahisələrinin yaranmasının üç əsas səbəbi göstərilir. Bunlardan biri vergitutma obyektinin müəyyən edilməsi və tətbiqi ilə bağlı vergi hüququ münasibətlərindən, digəri vergilərin hesablanmasına və ödənilməsinə vergi nəzarəti tədbirlərinin görülməsindən, üçüncüsü isə vergi ödəyicilərinə qarşı məsuliyyət tədbirlərindən irəli gəlir. Təcrübə göstərir ki, vergi ödəyiciləri ilə vergi orqanları arasında yaranan mübahisələrin sayının çoxalması, ilk növbədə, vergitutma mexanizminin mürəkkəbləşdirilməsi, vergi qanunvericiliyinin təkmilləşdirilməsinin lazımi səviyyədə olmaması, vergi qanunvericiliyinin tətbiqinin düzgün olmayan izahının verilməsi, maliyyə sanksiyalarının məhkəmə qaydasında həyata keçirilməsi və vergi orqanlarının çıxardığı qərarların zəif əsaslandırılması ilə bağlıdır.

*Vergi mübahisələrini yaradan səbəblərin aradan qaldırılması və yarandığı halda onların optimal həlli üçün müvafiq normaların müəyyən edilməsi məsələləri vergi inzibatçılığının əsas vəzifələrindən biridir*

Vergi mübahisələrinin artması istər vergi ödəyiciləri, istərsə də vergi orqanları üçün xoşagəlməz sayılır və əlavə vaxt itkisinə, inzibatçılıq xərclərinin çoxalmasına gətirib çıxarır. Buna görə də vergi mübahisələrini yaradan səbəblərin aradan qaldırılması və yarandığı halda onların optimal həlli üçün müvafiq normaların müəyyən edilməsi məsələləri vergi inzibatçılığının əsas vəzifələrindən biridir.

Demək olar ki, əksər ölkələrin qanunvericiliyində vergi orqanlarının qərarlarından məhkəməyə müraciət etmək və yaxud inzibati qaydada baxılması üçün yuxarı vergi orqanına şikayət vermək vergi ödəyicilərinin hüququ kimi müəyyən olunmuşdur. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, vergi ödəyicilərinin müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət vermək hüququ vardır. Vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının hərəkətlərindən (hərəkətsizliyindən) şikayət qanunla müəyyən edilmiş qaydada yuxarı vergi orqanına və (və ya) məhkəməyə verilə bilər. Bu zaman şikayətin yuxarı vergi orqanına verilməsi həmin şikayətin eyni zamanda və ya sonradan məhkəməyə verilməsini istisna etmir.

Bir çox ölkələrdə, o cümlədən Avstraliyada, İtaliyada və Türkiyədə vergi ödəyicisi o halda məhkəməyə şikayət verə bilər ki, mübahisə predmetinə çevrilmiş vergi öhdəlikləri tam yerinə yetirilmiş olsun. Lakin təcrübə göstərir ki, belə hallar məhkəmə orqanlarının gərgin iş rejimində işləməsinə və vergi mübahisələrinin həll olunması müddətlərinin uzadılmasına gətirib çıxarır. Artıq bir çox ölkələrdə şikayətin verilməsi mexanizmi ilə bağlı müəyyən təcrübə qazanılmışdır. Buna misal kimi Kanada, Fransa və Portuqaliya ölkələrinin təcrübəsini göstərmək olar. Həmin ölkələrin qanunvericiliyinə görə verginin ödənilməsi barədə vergi orqanının tələbinin yerinə yetirilməsi müddəti müəyyən zəmanət verilməklə dayandırıla bilər. Kanadada daxili apelyasiya prosedurlarına əsasən, vergi mübahisəsi məhkəməyə verilməmişdən qabaq Vergi və Gömrük Rüsumları Agentliyi tərəfindən baxılır.

Azərbaycanda da vergi mübahisələrə baxılması zamanı daxili apelyasiya prosedurlarından istifadə olunması və şikayətlərə baxılmasına nəzarətin gücləndirilməsi məqsədilə Vergilər Nazirliyində Vergi Apelyasiya Şurası yaradılmışdır. Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması, mübahisəli vergi məsələləri üzrə çıxarılmış qərarlardan məhkəməyə şikayətin verilməsinə sərf olunan inzibati xərclərin və vaxt itkisinin qarşısının alınması və vergi mübahisələrinin məhkəməyə qədər obyektiv şəkildə həll edilməsi Vergi Apelyasiya Şurasının fəaliyyətinin əsasını təşkil edir.

Təkcə 2012-ci il ərzində Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurasında 18 müraciətə baxılmışdır. Həmin müraciətlərdən 8-i təmin edilmiş, 4-ü təmin edilməmiş, 3 iş üzrə müraciət edən şəxsə məktubla müvafiq məlumat (izahat) verilmiş, 2 iş üzrə təkrar şikayət edən şəxsin təkzib ərizəsi nəzərə alındığından, işə mahiyyəti üzrə baxılmamış, 1 iş üzrə təkrar şikayətin predmeti məhkəmədə mübahisələndirildiyi üçün icraatına xitam verilmişdir.

Qeyd etmək lazımdır ki, vergi mübahisələrinin məhkəməyə müraciət olunmadan vergi orqanları səviyyəsində və ya Vergi Apelyasiya Şurasında obyektiv həll olunması mübahisələrin minimuma endirilməsinin əsas yollarından biri olmaqla, aşağıdakı tədbirlərin görülməsini tələb edir:

- yerli vergi orqanlarının çıxardığı qərarların qanunauyğun olmasına nəzarətin gücləndirilməsi;
- vergi mübahisələrinin məhkəməyə qədər həll olunması üçün stimulların yaradılması;
- vergi mübahisələrinin mahiyyətindən asılı olaraq, onların həllinin diferensial mexanizmlərinin yaradılması;
- vergi mübahisələrinin həlli sahəsində barışıq prosedurlarının tətbiqinin və inkişafının stimullaşdırılması;
- vergi ödəyiciləri ilə vergi orqanları arasındakı münasibətlərin partnyorluq prinsipləri əsasında qurulması.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Müəssisənin öz fəaliyyətini rəsmən dayandırması

***Müəssisə yanvar ayından öz fəaliyyətini rəsmi qaydada dayandırıb və bu barədə əlində rəsmi sənədi - bəyannaməsi var. Lakin sosial müdafiə fonduna bunu yazılı olaraq bildirməyib və həmin rəsmi sənədi sonradan təqdim edib. Bu halda sosial müdafiə fondunun həmin müəssisəni rəsmi olaraq fəaliyyətsiz qaldığı müddət üçün cərimə etməyə qanuni haqqı çatırmı?***

«Sosial sığorta haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 10-cu maddəsinə əsasən, sığortaedənlərin vəzifələrindən biri də hesabat dövründə fəaliyyət göstərmədiyi halda sığortaçıya hesabat əvəzinə hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq fəaliyyətin olmaması barədə arayış təqdim etməkdir.

Qanunun 21-ci maddəsinə əsasən, sığortaedənlər tərəfindən məcburi dövlət sosial sığortası ilə əlaqədar hesabat və maliyyə sənədlərinin vaxtında təqdim edilməməsinə görə onlara hesabat dövrü üçün hesablanmış sosial sığorta haqqının 10%-i məbləğində, hesabat dövrü üçün hesablanmalı olan sosial sığorta haqqının məbləğini müəyyənləşdirmək mümkün olmadıqda, qırx dörd manat miqdarında cərimə tətbiq olunur.

Eyni zamanda, Qanunun 18-ci maddəsinə əsasən, məcburi dövlət sosial sığortası sahəsində idarəetməni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu) məcburi dövlət sosial sığorta haqqının toplanması qaydalarını müəyyən edir.

Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən təsdiq edilmiş «Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları»nın 67-ci bəndinin 3-cü abzasında qeyd edilmişdir ki, sığortaedən tərəfindən fəaliyyətinin olmaması barədə müəyyən edilmiş müddətdə arayış təqdim olunmaması hesabatın təqdim edilməməsi kimi qiymətləndirilir.

Qeyd edilənləri nəzərə alaraq bildiririk ki, sığortaedən tərəfindən fəaliyyətinin olmaması barədə müəyyən edilmiş müddətdə arayış təqdim edilmədikdə onun barəsində cərimə tətbiq oluna bilər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2013-cü il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı **1505,6 min nəfər** olmuş və onlardan **901,8 min nəfəri** iqtisadiyyatın dövlət bölməsində, **603,8 min nəfəri** isə qeyri-dövlət bölməsində fəaliyyət göstərmişdir.
- Cari ilin 11 ayı ərzində pərakəndə ticarət subyektlərində istehlakçılara **17,2 milyard manatlıq** və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə **9,7%** çox əmtəə satılmışdır. İstehlak mallarının **51,7%-ni** ərzaq, **48,3%-ni** qeyri-ərzaq malları təşkil etmişdir.
- On ay ərzində Azərbaycanın xarici ticarət dövriyyəsi **36,2 milyard dollar** təşkil etmişdir.

# Nəzarət-kassa aparatlarının tətbiqinə cəmiyyət maraqlı olmalıdır

*Malların, xidmətlərin təqdim edilməsi zamanı nağd ödənilmiş pulun əvəzində çekin, qəbzin təqdim olunması prosesləri ilk baxışda adi görünsə də, nağd hesablaşmaların rəsmiləşdirilməsi qaydaları və formalarından, bu rəsmiləşdirilmənin maraqlarımızın təmin olunmasında oynadığı roldan, nağd pul hesablaşmalarının aparılması zamanı tərəflərin hüquq və vəzifələrindən, müasir dövrdə istismar olunan nəzarət-kassa aparatlarından (NKA), onların istismarının qanunvericilik əsaslarından və s. bu kimi məsələlərdən hər birimiz məlumatlı olmalıyıq. Bizim məlumatlı olmağımız istehlakçı kimi hüquqlarımızın təmin edilməsində də mühüm rol oynayır.*

NKA - malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı nağd hesablaşmaların qeydiyyatında istifadə edilən, fiskal yaddaşa malik olan və vergi orqanlarında müəyyən olunmuş qaydada qeydiyyatdan keçən elektron avadanlıq və ya kompüter sistemidir. İş adamları nağd hesablaşmalar zamanı malları, xidmətləri təqdim edərkən kassa aparatı tətbiq etməklə öz satıcılarına nəzarəti gücləndirmək imkanı qazanırlar. Həmçinin mədaxil və məxaric edilmiş malların (işlərin, xidmətlərin) uçotunun rahat və dəqiq aparılması, dövriyyə üzrə istər operativ, istərsə də müəyyən tarixlərə görə hesabatların əldə edilməsi imkanı yaranır.

İstehlakçılar isə alınmış mallar keyfiyyətsiz və ya standartlara uyğun olmadıqda onun geri qaytarılmasını tələb edə bilirlər ki, bu da alıcının aldadılması hallarının qarşısının alınmasına gətirib çıxarır. Təbii ki, həm vergi ödəyicisinin, həm də istehlakçının fərdi maraqlarının təmin olunmasından başqa, NKA-nın tətbiqi ümumilikdə cəmiyyətin maraqlarına xidmət edir.



fiskal yaddaşının göstəricisini əks etdirən çek;

- NKA-da quraşdırılmış elektron ötürücülər barədə STXM-nin aktı (həmin akta NKA-nın fiskal yaddaşı dəyişdirildikdən sonra nümunə kimi 10 qəpiyə qədər məbləğdə NKA-ya mədaxil edilmiş dövriyyə barədə «Z» hesabatının surəti əlavə olunur).

*Onu da xüsusilə vurğulayaq ki, dövlət reyestrinə daxil edilməmiş və ya həmin reyestrdən çıxarılmış NKA-ların vergi orqanı tərəfindən qeydiyyata alınmasına yol verilmir.*

***Tərəflər arasında aparılan bütün əməliyyatların qeydə alınması kölgə iqtisadiyyatının qarşısının alınmasına, vergilərin tam həcmdə dövlət büdcəsinə yığılmasına, nəticə etibarilə iqtisadiyyatın inkişafına, dövlətin güclənməsinə və əhalinin rifah səviyyəsinin artmasına gətirib çıxarır***

NKA-nın qeydiyyata alınması məqsədilə obyektin yerləşdiyi əraziyə xidmət edən vergi orqanına müvafiq ərizə və aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Servis texniki xidmət mərkəzinin (STXM-nin) NKA-nın quraşdırılması barədə aktı;
- Ərizənin verilmə tarixinə NKA-nın

Vergi ödəyicisi və ya müqavilə əsasında STXM tərəfindən NKA-ların qeydiyyata alınması və qeydiyyatdan çıxarılması elektron formada aparıla bilər. Birinci halda vergi ödəyicisi Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) «E-Xidmətlər» bölməsindəki «Nəzarət-kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması» adlı elektron xidməti seçərək «İnternet Vergi İdarəsi»nin «Onlayn kargüzarlıq və e-VHF» alt bölməsində öz istifadəçi kodu, parol və şifrəsi vasitəsilə sistemə daxil olmaqla NKA-nı elektron formada qeydiyyatdan keçirə bilər.

NKA tətbiq edən vergi ödəyicisi bir sıra tələblərə əməl etməlidirlər. İlk növbədə, yadda saxlamaq lazımdır ki, əhali ilə nağd pul hesablaşmalarının NKA vasitəsilə aparılması məcburidir. Obyektdə quraşdırılmış NKA-nın yaddaşına malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı və bir vahidinin qiyməti daxil edilməlidir. Alınmış mallar, görülmüş işlər və göstərilmiş xidmətlər müqabilində alıcılara (sifarişçilərə) müvafiq məlumatları özündə əks etdirən kassa çeki təqdim olunur. Alıcıya təqdim edilən çeklərdə vergi ödəyicisinin adı, VÖEN-i, çekin vurulma tarixi və saatı, obyektin adı və yerləşdiyi ünvan, malın (işin, xidmətin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ, gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi, NKA-nın markası və zavod nömrəsi hökmən əks etdirilməlidir. Bu məlumatlar olmasa, həmin NKA-nın və ya çekin saxta olması ehtimalı yüksəkdir. Alıcı kassa çeki ilə yanaşı, malın (işin, xidmətin) qaimə-fakturasını tələb etdikdə satıcı kassa çeki ilə birlikdə həmin sənədləri də alıcıya təqdim etməyə borcludur. POS-terminal quraşdırılması məqsədəmüvafiq hesab edilən obyektlərdə isə onların quraşdırılması vacibdir.

**Rəşad SADIQOV**

# Daşınmaz əmlakın icbari sığortası

Ölkədə daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi və ya məhv ola bilməsindən heç kimə zəmanət verilməyib. Lakin baş verəcək hadisələr zamanı zərərin minimuma endirilməsinə 2011-ci ilin dekabrından tətbiq olunan daşınmaz əmlakın icbari sığortası ilə nail olmaq mümkündür. İcbari sığorta daşınmaz əmlakın yanğın və ya digər hadisələr zamanı məhv olması və yararsız hala gəlməsi, yaxud hər hansı formada itkisi ilə dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir. Bu sığorta növü hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evlərinin, binaların və mənzillərin, habelə dövlət əmlakının sığortalanmasını icbari edir.

«İcbari sığortalar haqqında» Qanuna görə, yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortası onların konstruktiv elementlərinə, otaqlarına, o cümlədən şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərinə, bəzək elementlərinə, o cümlədən bütün növ xarici, yaxud daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlərə təminat verir.

Mülkiyyətində daşınmaz əmlak olan və ya ona faktiki sahibliyi həyata keçirən şəxs həmin əmlakla bağlı icbari sığorta müqaviləsi bağlamaq üçün daşınmaz əmlakın icbari sığorta növünün aparılmasına icazəsi olan hər hansı sığortaçını seçməkdə sərbəstdir.

Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta hadisəsi - yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma, hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri, yerüstü nəqliyyat vasitəsinin dəyməsi, təbii fəlakətlər - zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi, üçüncü şəxslərin hərəkətləri nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi hesab olunur. Qanunvericiliyə görə, özbaşına tikinti sayılan daşınmaz əmlak, Mülki Məcəlləyə və Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq sökülməsi barədə qərar qəbul edilmiş, eləcə də tikintisi başa çatmayan və qəzalı vəziyyətdə olan daşınmaz əmlak icbari sığortaya cəlb oluna bilməz. Həmçinin sığortalının hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər, sığortalanmış əmlaka təmir, emal və ya digər istehsalat məqsədləri üçün tətbiq olunan istehsal alovunun, yaxud istiliyin təsiri nəticəsində, eyni zamanda yanğın baş verməmişdirsə, belə əmlaka zərərin dəyməsi, hadisə zamanı və ya hadisədən sonra əmlakın hər hansı hissəsinin oğurlanması, qrunt sularının səviyyəsinin dəyişməsi, suyun borulardan və ya rezervuardan şaxta vurma, aşınma, yeyilmə, tədricən xarab olma, boruların və rezervuarların təmiri, köçürülməsi və ya tutumunun artırılması nəticəsində axması zamanı daşınmaz əmlakın zədələnməsinə sığorta ödənişləri verilmir.



Daşınmaz əmlakın icbari sığorta müqaviləsi bağlamaqla çox az ödəniş edib, əmlaka dəyən zərərin bir hissəsinin xərclərini qarşılamaq mümkündür. Yaşayış evləri və mənzillərin icbari sığortası üzrə sığorta məbləği Bakı şəhəri üçün 25 min, icbari sığorta haqqı 50 manat; Gəncə, Sumqayıt və Naxçıvan şəhərləri üçün sığorta məbləği 20.000, sığorta haqqı 40 manat; digər yaşayış məntəqələri üçün sığorta məbləği 15 min, sığorta haqqı 30 manatdır.

Bu ilin noyabr ayında daşınmaz əmlakın icbari sığortası üzrə 13.058 sığorta müqaviləsi imzalanıb. Ümumilikdə isə daşınmaz əmlakın icbari sığorta növü üzrə yanvar-noyabr ayları ərzində 98.765 sığorta müqaviləsi bağlanıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakın icbari sığortası müqavilələrinin sayında 11,8% azalma, daxil olan sığorta haqlarının məbləğində 15,5% artım qeydə alınıb.

**A.NƏBİYEVA**

# İslam bankçılığına diqqət artır

*Ölkəmizdə ötən ildən Beynəlxalq Bankın nəzdində «İslam pəncərəsi» xidməti fəaliyyət göstərir. Bu xidmət bir sıra ölkələrin: Fars körfəzi dövlətlərinin, Misir, Malayziya, Türkiyə, eləcə də Rusiya, ABŞ və Böyük Britaniyanın iri banklarında da yaradılıb.*

İslam bankçılığının xüsusiyyətləri maliyyə bazarlarında maddi aktivlərə əsaslanan əməliyyatların aparılması, pullardan əmtəə şəklində istifadə edilə bilməməsi, maliyyələşdirmələrin faiz hesablanması metodu əsasında aparılmaması, İslam dini ilə qadağan olunmuş məhsulların istehsalı, ticarəti ilə bağlı xidmət növlərinin maliyyələşdirilməməsi, maliyyə bazarlarında bütün əməliyyatların şəffaf və aydın aparılmasıdır. Bunların nəticəsində maliyyə bazarında sabitliyin və etibarlılığın təmin olunması üçün şərait yaradılır. İslam bankçılığı sistemi başlıca olaraq investisiya maliyyələşdirmə sisteminə əsaslandığından ölkə iqtisadiyyatının güclənməsinə xidmət edir.

İslam bankçılığında iqtisadi münasibətlər, əsasən, tərəfdaşlıq prinsiplərinə söykənir. Şəriklik prinsipi əsasında aparılan investisiya layihələrində bank, mənfəətlə yanaşı, biznes prosesində əmələ gələn zərərləri də müştəri ilə bölüşür. Bu da hər iki tərəfin məsuliyyətini ikiqat artırır. İslam bankçılığı həm də bütün müqavilələrdə gələcəkdə iqtisadi mübahisələrin yaranmasına səbəb ola biləcək qeyri-müəyyən xarakterli müddəaların mövcud olmasına yol vermir.

Bu ilin ortalarından İslam maliyyələşmə kartları da bazara çıxarılıb. Bu kartların özəlliyi ondadır ki, onunla ödəniş faizsiz həyata keçirilir. Bankların həmin kartlardan qazancı isə konkret müəyyənləşdirilmiş komissiya haqqının tətbiqinə əsaslanır.

İslam bankçılığının ölkəmizdə tətbiqi respublikamızda bank sisteminin inkişafının yeni mərhələsi sayılır. Bu bankçılığın fəaliyyəti ilə beynəlxalq islam maliyyə qurumlarından əlavə vəsaitlərin cəlb olunması, respublikamızda investisiya mənbələrinin diversifikasiyası, sahibkarlığın inkişafı və əhaliyə yeni bank xidmətlərinin göstərilməsi təmin ediləcək.

İslam bankçılığının inkişafı məqsədilə Azərbaycanda bir sıra addımlar atılır. Bu günlərdə Milli Məclisin İqtisadi siyasət komitəsinin iclasında «Ticarətin maliyyəşdirilməsi üzrə Beynəlxalq İslam Korporasiyasının Təsis Sazişinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının qanun layihəsi müzakirə olunub. Müzakirə zamanı bildirilib ki, bu qanun Azərbaycanın İslam dünyası və İslam Konfransı ölkələri ilə ticarətinin maliyyəşdirilməsinə və stimullaşdırılmasına dəstək verəcək, sənədin imzalanması Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərəcək. Komitə sədri Ziyad Səmədzadənin sözlərinə görə, bu qanun layihəsi Azərbaycanın İslam Konfransı Təşkilatının 36 üzv ölkəsi ilə idxal və ixrac məsələlərini stimullaşdıracaq. Qanunun tətbiqi ölkəmizdə bankçılığın inkişafına təkan verəcək və İslam bankçılığını genişləndirmək üçün yerli banklara kredit cəlb etməyə imkan yaradacaq.

**AYTƏN**

# Rəqabət Məcəlləsinin qəbulu yeni sərmayə axını cəlb edəcək

*Rəqabət Məcəlləsinin qəbul olunması Azərbaycanın Avropa iqtisadiyyatına inteqrasiyasının dərinləşməsinə stimul verəcək*

Azərbaycan və Avropa Birliyi (AB) arasında viza rejiminin sadələşdirilməsinə dair saziş respublikamızın Avropa məkanına inteqrasiyasının daha da genişlənməsi, iqtisadi əlaqələrin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Sadələşdirilmiş viza rejiminin tətbiqi Azərbaycanın biznes strukturlarının Avropaya ixrac imkanları üçün əlavə imkanlar yaradacaq, eyni zamanda, Avropa ölkələrinin respublikamızın qeyri-neft sektoruna yeni investisiya qoyuluşlarına stimul verəcək. Sadələşdirilmiş viza sazişinin imzalanmasından sonra Azərbaycan hökuməti xarici sərmayəçilərin ölkəmizdə fəaliyyətinin daha da gücləndirilməsinə dəstək xarakterli tədbirlər görmək niyyətindədir. Bu istiqamətdə ən mühüm addımlardan biri Rəqabət Məcəlləsinin hazırlanması ilə bağlıdır.

İqtisad İnkişaf Nazirliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin müdiri Sahil Babayev demişdir ki, sadələşdirilmiş viza sistemi Azərbaycanda çalışmaq və investisiya qoymaq istəyən xarici iş adamları üçün geniş imkanlar açır. Avropanın bir sıra iri şirkətlərinin ölkəmizdə həyata keçirilən yeni layihələrə, xüsusilə də sənaye komplekslərinə, texnologiyalar parklarına, qeyri-neft sektorunda cəlbedici layihələrə marağını artırmaq üçün əlverişli fürsət yaranıb. Bu istiqamətdə tədbirlərin ən mühüm hissəsi kimi rəqabətqabiliyyətliliyin dərinləşməsinə səbəb olan müvafiq addımlar atmaq zəruridir. Ona görə də Rəqabət Məcəlləsinin qəbul olunması qarşıda duran ən mühüm və vacib məsələlərdəndir.

Azərbaycan 2020-ci ilə qədər qeyri-neft sektorunun ÜDM-dəki payını 80%-dək artırmaq niyyətindədir. Ölkəmizdə sərmayə qoyuluşu üçün prioritet sahələr qeyri-neft sənayesi, kənd təsərrüfatı, İKT və turizmdir. Bu məqsədlə xarici investiyaların həcminin artırılması, xüsusilə də AB ölkələrinin sərmayə yatırımlarında payının ikiqat çoxaldılması hədəf seçilib. Əməkdaşlığın gələcək perspektivləri sırasında qarşılıqlı investisiyaların həcminin artırılması, iqtisadiyyatın bir çox sahələrində yeni layihələrin icrası, ticarət, azad iqtisadi zonalar çərçivəsində birgə iqtisadi layihələr, gömrük güzəştləri, qarşılıqlı investisiyalar, əmək miqrasiyası və digər sahələr üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Hazırda respublikamızın qeyri-neft sektoruna sərmayə qoyan ölkələr arasında AB ölkələrinin payı təxminən 37% təşkil edir. İndiyədək AB-nin 17 ölkəsi ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalanıb və bu istiqamətdə tədbirlər davam etdirilir. Yaxın müddətdə digər AB ölkələri ilə də sazişin imzalanması nəzərdə tutulur. Bu isə Avropa dövlətlərinin Azərbaycanın qeyri-neft iqtisadiyyatına potensial sərmayə qoyuluşlarına əlavə təkan verəcək.

Qeyd olunmuşdur ki, Azərbaycanda rəqabət mühitinin daha da yaxşılaşdırılması dövlərin iqtisadi siyasətinin əsas istiqamətlərindəndir və bununla bağlı davamlı islahatlar həyata keçirilir. Bu ilin ortalarında «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanun qəbul olunub. Bu sənəd sahibkarlıq sektorunun iqtisadi inkişafda rolunun daha da artmasına və azad biznesə əlverişli şərait yaradır.

Mütəxəssisin rəyinə əsasən, respublikamızda xarici investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilib. «İnvestisiya fəaliyyəti haqqında», «Xarici investisiyaların qorunması haqqında» qanunların icrası, eləcə də Azərbaycanla bir sıra xarici dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin qüvvəyə minməsi xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların ölkəmizə olan marağının daha da artmasına əsaslı zəmin yaradıb.

Hazırda yeni əməkdaşlıq formatının müəyyən edilməsi və Azərbaycanın Avropa iqtisadiyyatına inteqrasiyasının dərinləşməsi, həmçinin iqtisadi sahədə qanunvericiliyin AB-nin meyarlarına uyğunlaşdırılması vacib elementlərdəndir. Rəqabət Məcəlləsinin qəbul olunması və antiinhisar sahəsində mövcud qanunvericiliyin təkmilləşdirilərək Avropa standartlarına uyğunlaşdırılması da bu tələbdən irəli gəlir.

Məcəllənin qəbul olunması daxili bazarda inhisarçılıqla mübarizə tədbirlərinin güclənməsinə, azad sahibkarlığın inkişafına, şirkətlərin rəqabət mühitində fəaliyyət göstərməsinə səbəb olacaq. Məcəllə biznes mühitinin sağlamlaşdırılması, şirkətlərin inkişafı üçün yeni imkanların yaradılması, həmçinin ölkə iqtisadiyyatında rəqabətin müdafiəsi ilə bağlı yeni metod və vasitələrin tətbiq olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Sənəd ölkəmizdə daxili bazarda azad rəqabət mühitini təmin etməklə istehsalın keyfiyyətinin yüksəlməsinə, yerli istehsalın dünya bazarlarında rəqabətqabiliyyətliliyinin artmasına da müsbət təsir göstərəcək, Azərbaycanın ÜTT-yə üzvlüyünü sürətləndirəcək. Rəqabət Məcəlləsinin qəbul edilməsi ölkə iqtisadiyyatına müsbət təsir göstərməklə bərabər, beynəlxalq iqtisadi strukturlarda və ixrac bazarlarında Azərbaycanın mövqeyinin möhkəmlənməsinə səbəb olacaq.

**Elbrus CƏFƏRLİ**

# Qeyri-neft məhsullarının ixracı artır

*Son illər Azərbaycanda yerli məhsulların ixracının stimullaşdırılması sahəsində həyata keçirilən kompleks tədbirlər səmərəli nəticələr verir. Ölkədə istehsal sahibkarlığının inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticə etibarilə rəqabətə davamlı məhsul istehsalında əsaslı dönüşə imkan yaradıb.*

**Azərbaycanın xarici ticarət əlaqələri**




*On ay ərzində xarici ticarət dövriyyəsi 36,2 milyard ABŞ dolları təşkil edib və ya 2012-ci ilin eyni dövrü ilə müqayisədə 4,3% artıb*

İnfrastrukturun müasirləşdirilməsi, iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün dövlətin güzəştli kreditlərinin verilməsi, investisiyaların cəlb edilməsinə mane olan bürokratik amillərin aradan qaldırılması, eləcə də elektron xidmətlərin həcminin genişləndirilməsi tədbirləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Regionlarda müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunan yeni sənaye və emal müəssisələrinin açılması dünya bazarlarına rəqabətə davamlı məhsulların çıxarılmasına, bütövlükdə ixracın şaxələndirilməsinə imkan yaradır. İxracın qeyri-neft sektoru hesabına genişləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirən Azərbaycan xarici ticarət dövriyyəsinin strukturunda da müsbət keyfiyyət dəyişikliklərinə nail olur. 2013-cü ilin yanvar-oktyabr aylarında ölkənin idxal-ixrac əməliyyatlarının strukturu bunu bir daha təsdiqləyir. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-oktyabr aylarında Azərbaycanın rezidentləri dünyanın 147 ölkəsinin hüquqi və fiziki şəxsləri ilə ticarət əməliyyatları həyata keçiriblər: əmtəə 101 ölkəyə ixrac, 138 ölkədən idxal olunub.

On ay ərzində xarici ticarət dövriyyəsi 36,2 milyard ABŞ dolları təşkil edib və ya 2012-ci ilin eyni dövrü ilə müqayisədə 4,3% artıb. Dövriyyənin 27,3 milyard dolları ixracın, 8,9 milyard dolları idxalın payına düşüb, nəticədə 18,4 milyard dollarlıq müsbət saldo yaranıb.

Müsbət göstəricilərdən biri də ölkəmizin idxal-ixrac əməliyyatı apardığı ölkələrin coğrafiyasının genişlənməsidir. Qeyd olunan dövrdə ticarət əlaqələrinin 11,6%-i MDB-yə üzv ölkələrlə, 43,1%-i Avropa Birliyi, qalan 45,3%-i digər dövlətlərlə qurulub. Xarici ticarət dövriyyəsi iştirakçılarının 29-u Amerika, 49-u Avropa, 38-i Asiya və s. ölkələridir.

İxrac məhsulları arasında xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, bitki və heyvan mənşəli piylər və yağlar, idxal məhsulları arasında qida məhsulları, qara metallar və onlardan hazırlanan məmulatlar, maşın, mexanizm, elektrik aparatları, avadanlıqları, nəqliyyat vasitələri və onların hissələri üstünlük təşkil edib. Ümumilikdə, qeyri-neft məhsullarının ixracı ötən ilin yanvar-oktyabr ayları ilə müqayisədə 9,5% artaraq 1,4 milyard dollar təşkil edib. Adambaşına düşən qeyri-neft məhsullarının ixracı 11,8 dollar artaraq 153,5 dollara çatıb.

İxracın strukturunda qeyri-neft məhsullarının xüsusi çəkisinin artması iqtisadi şaxələndirmə siyasətinin nəticəsi kimi dəyərləndirilir. Respublikanın ixrac potensialının möhkəmləndirilməsində məqsəd həm də davamlı inkişafın təmini və makroiqtisadi sabitliyin qorunub saxlanılmasıdır. Xatırladaq ki, «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası respublikanın 2020-ci ilədək ixrac potensialının məhz qeyri-neft sektoru hesabına artırılmasını, ixracın adambaşına düşən həcminin 1000 ABŞ dollarına çatdırılmasını əsas hədəflərdən biri kimi müəyyənləşdirib. Bu məqsədlə yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyatın formalaşdırılması da prioritet məqsədlərdən biri kimi nəzərdən keçirilir.

Yaxın perspektivdə ixracın strukturunda kənd təsərrüfatı məhsullarının nəzərəçarpacaq artımı gözlənilir. Bu günlərdə İqtisadiyyat və Sənaye Nazirliyinin təşkilatçılığı ilə Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində keçirilmiş «Aqrar-sənaye kompleksinin rəqabət qabiliyyətinin artırılması: nailiyyətlər və perspektivlər» mövzusunda tədbirdə bu fikir bir daha vurğulanıb. 300-ə yaxın sahibkarın iştirakı ilə keçirilən tədbirdə Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracı sahəsində böyük potensialın olduğu, bu potensialdan səmərəli istifadənin zəruriliyi vurğulanıb. İqtisadiyyat və sənaye nazirinin müavini Niyazi Səfərov bildirib ki, Azərbaycanda yaxın illərdə müasir standartlara cavab verən, rəqabət qabiliyyətli məhsullar istehsal edən aqrar-sənaye kompleksinin formalaşdırılması istiqamətində işlər daha da genişləndiriləcək. O, aqrar sənayenin inkişafı, istehsal olunan məhsulların rəqabətqabiliyyətliyinin artırılması istiqamətində tədbirlərin davam etdirildiyini və bu sahədə sahibkarlara hər cür dəstək göstərildiyini xüsusi vurğulayıb.

Ölkənin ixrac potensialının möhkəmlənməsinə müsbət təsir göstərən məqamlardan biri də bu sahədə qanunverici və institusional tədbirlərin həyata keçirilməsidir. Məsələn, Nazirlər Kabinetinin 2011-ci il 8 fevral tarixli qərarı ilə təsdiq olunmuş «2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı» çərçivəsində son 2 ildə bir sıra genişmiqyaslı tədbirlər həyata keçirilib. Bu baxımdan, ixrac prosedurlarının sadələşdirilməsi, ixrac məqsədli məhsulların istehsalının kreditləşdirilməsi, ixrac üçün perspektivli sayılan ölkələrdə müvafiq sərgilərin, forumların təşkili, potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması kimi tədbirlər xüsusilə əhəmiyyətli olub.

Bundan başqa, gömrük sistemində «bir pəncərə»nin tətbiqi yerli sahibkarların xarici bazarlara çıxış imkanlarını genişləndirib. Bu sistemin yaradılması dövlət sərhədinin keçid məntəqələrinin buraxılış qabiliyyətliliyinin artırılmasına, ixrac zamanı süni maneələrin aradan qaldırılmasına və xarici ticarət əməliyyatlarının müasir tələblərə uyğun aparılmasına imkan yaradıb.

**Samir MUSTAFAYEV**

# İlk investisiya fondu yaradılır

## *Bu, vətəndaşların işgüzar fəallığının yüksəlməsinə səbəb olacaq*

*Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) Azərbaycanda investisiya fondunun yaradılması ilə bağlı ilk lisenziya verib. Komitədən bildirildiyinə görə, 2014-cü ildə fond müvafiq qanunvericilik əsasında fəaliyyətə başlamalıdır.*

*Prinsipial şərtlərdən biri də investisiya fondlarının səhmlərinin satışı zamanı investorlara risklər haqqında xəbərdarlığın edilməsidir*

İqtisadçı ekspertlərin fikrincə, investisiya fondları müasir dövrdə vətəndaşların sərbəst maliyyə vəsaitlərinin idarə olunmasının çevik, səmərəli və nisbətən az riskli üsullarından biridir. Bu cür fondlar çoxlu sayda investorların vəsaitləri hesabına formalaşaraq potensial investor qismində çıxış edir. Şəxsi vəsaitlərini müqavilə əsasında həmin fondlarda yerləşdirən vətəndaşlar səhmdar kimi gəlir əldə etmək imkanı qazanırlar. İnvestisiya fondlarının fəaliyyəti yerli sahibkarların və səhmdar cəmiyyətlərinin maliyyələşdirilməsində də vacib rol oynayır. Peşəkarlar tərəfindən idarə olunan investisiya fondları ayrı-arı müəssisələrin fəaliyyətinin səmərəliliyini, məhsulların rəqabətə davamlılıq səviyyəsini, mühasibatın beynəlxalq standartlara uyğunduğunu, korporativ idarəetmə standartlarının tətbiqini və digər vacib amilləri nəzərə alaraq onların səhmlərini əldə edirlər.

Azərbaycanda «İnvestisiya fondları haqqında» Qanun hələ 1999-cu ildə qəbul olunub. 2010-cu ildə bu qanun yeni dövrün tələblərindən irəli gələn bir sıra əlavə və dəyişikliklərlə daha da təkmilləşdirilib. Qanuna görə, investisiya fondu - səhmlərinin buraxılması və açıq yerləşdirilməsi vasitəsi ilə cəlb edilən, pul vəsaitini qiymətli kağızlara investisiya edən, habelə qiymətli kağızların alqı-satqısı üzrə fəaliyyət həyata keçirən, diversifikasiya edilmiş investisiya portfelinə sahib olan açıq tipli səhmdar cəmiyyətidir.

Qanun açıq və qapalı investisiya fondlarının yaradılmasına imkan verir. Açıq paylı investisiya fondları həftədə azı bir dəfə öz paylarının geri satın alınmasını həyata keçirməlidirlər. Qapalı paylı investisiya fondları isə hansısa layihələr və ya müddətli investisiyalar üçün yaradılır. Belə fondlara qoyulan pulları yalnız həmin müddət başa çatandan sonra geri götürmək olar. İnvestisiya fondlarının gəlirlilik dərəcələri fərqlidir, onların işlədiyi sahələrdən və risklərdən asılıdır.

QKDK-nın təsdiq etdiyi «İnvestisiya fondunun kapitalının formalaşdırılmasına, fondun aktivlərinin tərkibi, strukturu və idarə olunmasına tələblər haqqında Qaydalar» da investisiya fondlarının yaradılması ilə bağlı hüquqi məsələləri tənzimləyir. Həmin qaydalara əsasən, Azərbaycanda yaradılacaq investisiya fondlarının kapitalının minimum məbləği 500 min manat səviyyəsində nəzərdə tutulur. Fondun aktivlərinin idarə edilməsini həyata keçirən şəxsin nizamnamə kapitalının minimum məbləği isə 125 min manat həcmində müəyyən edilib. İnvestisiya fondunun idarə edilməsi ilə bağlı illik xərclər isə fondun aktivlərinin 5%-dən artıq ola bilməz.

İnvestisiya fondlarının aktivlərinin strukturuna dair tələblərə əsasən, ümumilikdə belə fondların vəsaitlərinin azı 25%-i ölkə ərazisində yerləşdirilməlidir. İnvestisiya fondlarının aktivlərinin 70%-ə qədəri Azərbaycandan kənarda fəaliyyət göstərən fond birjalarında listinqdən keçmiş səhmlərə yatırıla bilər. Prinsipial şərtlərdən biri də investisiya fondlarının səhmlərinin satışı zamanı investorlara risklər haqqında xəbərdarlığın edilməsidir. İnvestorlar investisiya fondlarına pul yatırmazdan əvvəl «Risklər haqqında xəbərdarlıq» sənədini imzalamalıdırlar.

Qanunvericilikdə investisiya fondlarına vəsait qoyan potensial investorların vəsaitlərinin qorunması üçün bir sıra mexanizmlər nəzərdə tutulub. Bu mexanizmlər investisiya fondlarının vəsaitlərinin idarə olunmasında fırıldaqçılıq və ya digər neqativ halların yaranmasını istisna edir. Qanuna görə, investorlar fondun necə işləyəcəyini, hansı sahəyə və kağızlara pul qoyacağını əvvəlcədən biləcək, buna uyğun olaraq qərar verəcəklər. Bundan başqa, investorlar həmin kağızların gəlirliliyini izləyə biləcək və risklərə görə narahat olmayacaqlar.

QKDK-nın Lisenziyalaşdırma və nəzarət şöbəsinin müdiri Fərid Rəhimli bildirib ki, hazırda daxili bazarda kollektiv investisiya sxemlərinə maraq böyükdür: «İnvestisiya fondları Azərbaycan bazarı üçün əsaslı yenilikdir. Bu, idarəetmə şirkətlərinin, həmçinin investorların da marağındadır. Ümumiyyətlə, indi Azərbaycan belə institutların yaranmasına hazırdır».

F.Rəhimli səmərəlilik baxımından investisiya fondlarının kiçik sərmayədarlar üçün daha sərfəli olacağı qənaətindədir. Ekspert hesab edir ki, belə fondar kiçik sərmayədarlara vəsaitlərini səmərəli yerləşdirmək, beləliklə, vətəndaşların işgüzar fəallığını yüksəltmək imkanı yaradır. Onun sözlərinə görə, sərbəst vəsaitlərini investisiya fondlarına etibar edəcək vətəndaşlar bank depozitləri ilə müqayisədə daha çox gəlir əldə etmək imkanı qazanacaqlar: «İnvestisiya fondlarının əsas üstünlüyü onların peşəkar menecerlər tərəfindən idarə olunmasıdır. Pulların peşəkar idarə olunması, risklərin bölünməsi, kiçik məbləğlə investisiya qoyuluşu imkanı, likvidlik, komissiya haqlarında qənaət və digər üstünlüklər belə fondları səhmdarlar üçün cəlbedici edir. Fond vətəndaşların vəsaitlərini bir yox, bir neçə şirkətin səhmlərinə qoyur. Bu sahələr səhmlər, dövlətlərin və şirkətlərin istiqrazları, daşınmaz əmlak, qızıl, neft və sair ola bilər. İnvestisiya fondları, xüsusən, qiymətli kağızlar bazarında təcrübəsi olmayan potensial investorlar üçün maraqlıdır. Sərbəst vəsaiti olan, lakin riksləri dəqiq qiymətləndirə bilməyən kiçik investorlar maliyyəni investisiya fondarında yerləşdirməklə gəlir əldə edəcəklər».

İqtisadçı ekspert Vüqar Bayramovun fikrinə görə, investisiya fondlarının ölkə iqtisadiyyatının real sektorunda da səmərəli layihələr həyata keçirməsi mümkündür: «İnvestisiya fondlarının yaradılması ölkənin qeyri-neft sektorunda fəaliyyət göstərən səhmdar cəmiyyətlərinin maliyyələşməsinə müsbət təsir göstərməklə, ümumilikdə, ölkədə biznes və investisiya mühitinin daha da yaxşılaşmasına təkan verəcək. Bundan başqa, böyük layihələr həyata keçirən şirkətlər banklardan yüksək faizlə kredit götürməkdənsə, qiymətli kağızlar bazarından ucuz pul vəsaitləri əldə edə bilərlər. Belə fondların yaradılması vergitutma bazasının genişləndirilməsi baxımından da əhəmiyyətlidir».

**S.MUSTAFAYEV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Qeyri-hökumət təşkilatlarının sahibkarlıq fəaliyyətinin auditi

Ölkədə fəaliyyət göstərən QHT-lərin gəlirlərinin böyük hissəsi qrant gəlirləri, digər formada yardımlar və ianələrdən ibarətdir. Çox az hallarda QHT-lərin sahibkarlıq fəaliyyəti ilə bağlı gəlirlərinin olması müşahidə olunsa da, bu gəlirlərin QHT-nin ümumi gəlirlərindəki payı nisəbətən aşağıdır. Fəaliyyəti zamanı bir çox vergilərdən və digər icbari ödənişlərdən azad olduqlarını düşünərək bəzi QHT-lər sahibkarlıq fəaliyyəti ilə bağlı gəlirlərinin və xərclərinin uçotunun dəqiqliyinə varmadan xidmətlərin göstərilməsi və sair mal satışı ilə məşğul olmaqda davam edirlər. Hazırda QHT-lərin əsas sahibkarlıq fəaliyyəti xidmətlərin göstərilməsi ilə əlaqədardır. Öz nizamnamə fəaliyyətinin predmetinə uyğun, məsələn, hüquq sahəsinə aid fəaliyyəti olan QHT-lər hüquqi xidmətlərin göstərilməsi ilə, iqtisadi sahəyə aid fəaliyyəti olan QHT-lər biznes-konsaltinq xidmətlərinin göstərilməsi ilə məşğul olmağa üstünlük verirlər. Əgər hər hansı bir QHT həm qeyri-birja (qeyri-sahibkarlıq), həm də birja (sahibkarlıq) fəaliyyəti ilə məşğul olursa, bu o deməkdir ki, həmin QHT-nin uçotu kifayət qədər mürəkkəbləşmişdir. Bu, o qədər də sadə uçot deyildir. Baxmayaraq ki, QHT-lər üçün ayrıca Milli Mühasibat Uçotu Standartı mövcuddur, sahibkarlıq fəaliyyəti göstərən QHT-lər dolayısı ilə Kommersiya Təşkilatları üçün MMUS-un tələblərini də tətbiq etmək məcburiyyətində qalırlar.

Bu baxımdan da audit zamanı QHT-nin sahibkarlıq fəaliyyəti ilə bağlı əməliyyatlarının ayrıca uçotunun aparılmasına xüsusi diqqət yetirilməlidir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2009-cu il 13 yanvar tarixli İ-05 nömrəli əmri ilə təsdiq edilmiş Qeyri-Hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı ictimai birliklərdə və fondlarda mühasibat uçotunun xüsusi tələblərini və maliyyə hesabatlarının hazırlanması qaydalarını müəyyən edir. Həmin Standartın ayrı-ayrı bölmələrində QHT-nin gəlirləri barədə təsnifatlar, onlara dair uçot tələbləri göstərilmişdir. Standartda təsnif edilən gəlirlərdən QHT-nin sahibkarlıq fəaliyyəti üzrə gəlirlərinə aid edilə bilənləri aşağıdakılardan ibarət ola bilər:

1. Xidmətlərin göstərilməsindən gəlir, yəni QHT tərəfindən sifarişçilərə təqdim olunmuş xidmətlər (işlər) üzrə hesablanmış məbləğlər.

2. Malların satışından gəlir, yəni QHT tərəfindən alıcılara təqdim olunmuş isntehsal etdiyi hazır məhsul və alınaraq satdığı mallar üzrə hesablanmış məbləğlər.

3 QHT-nin aktivlərinin digər şəxslərin istifadəsindən yaranan faiz, royalti və dividend formasında ədə edilən gəlirləri (bunlar maliyyə gəlirləri kimi də təsnifləşdirilir).

4. Torpaq, tikili və avadanlıqların satışı üzrə gəlirlər (yəni həm qeyri-birja, həm də birja məqsədli əsas vəsaitlərin xaricolmasından gəlirlər).

6. Qeyri-maddi aktivlərin (həm qeyri-birja, həm də birja məqsədli olanların) satışı üzrə gəlirlər.

6. İnvestisiya məqsədli daşınmaz əmlak üzrə gəlirlər, yəni icarə məqsədli daşınmaz əmlakın icarəyə verilməsindən əldə edilən icarə gəlirləri.

7. Digər icarə müqavilələri üzrə gəlirlər (yəni həm qeyri-birja, həm də birja məqsədli avadanlıqların, nəqdliyyat vasitələrinin və digər əsas vəsaitlərin icarə verilməsindən əldə edilən gəlirlər).

QHT-nin sahibkarlıq fəaliyyəti üzrə xərcləri də qeyri-birja fəaliyyətinə aid edilən xərclərdən ayrı uçota alınmalıdır. Aydındır ki, uçotda ümumi qaydada xərclər əsasən «əməkhaqqı xərcləri», «mal-material xərcləri», «amortizasiya xərcləri», «kənardan qəbul edilmiş xidmət xərcləri» və sair (faiz, cərimə, məzənnə və digər) xərclər kimi 5 başlıq adı altında qruplaşdırılır. Əsas odur ki, bu xərclərin içərisindən sahibkarlıq fəaliyyətinə aid olanlar düzgün ayrılsın.

QHT-nin «maliyyə fəaliyyətinin nəticələri haqqında» hesabatında sahibkarlıq fəaliyyəti ilə bağlı gəlirləri, xərcləri və bu fəaliyyətdən yaranan ümumi mənfəətin məbləğinin ayrıca göstərilməsi vacibdir. Ola bilsin ki, QHT-nin fəaliyyətinin ümumi maliyyə nəticəsi olaraq mənfəət və ya hər hansı kapital artımı yaranmasın, lakin ayrıca olaraq sahibkarlıq fəaliyyəti üzrə yaranmış mənfəətin və ya zərərin məbləğinin «maliyyə fəaliyyətinin nəticələri haqqında» hesabatda xüsusi olaraq ayrıca əks etdirilməsi şəffaflıq və aydınlıq prinsiplərini qorumuş olur.

Audit zamanı əsas diqqət yetirməli məqamlardan biri QHT-nin sahibkarlıq fəaliyyəti üzrə vergitutma obyektinin düzgün müəyyənləşdirilməsidir və əsas məsələlərdən biri də həm sahibkarlıq, həm də qeyri-birja fonunda qarışıq formada təzahür edən gəlirlərin və xərclərin, eləcə də ayrıca götürülmüş əmlakın (aktivin) vergitutma obyektinə təsirinin düzgün qiymətləndirilməsidir.

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

«Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun (29 iyun 2004-cü il, 716 İİQ) 10.1-ci maddəsinə görə, ictimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq subyektləri istisna olmaqla digər kommersiya təşkilatları öz seçimlərindən asılı olaraq, maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə tərtib edə bilərlər. Həmçinin Qanunun 9.0.2-ci maddəsinə görə, kiçik sahibkarlıq subyektləri də öz seçimlərindən asılı olaraq maliyyə hesabatlarını Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun şəkildə tərtib olunmaq məqsədilə tətbiq edə bilərlər.

Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları isə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında hazırlanaraq, həmin standartlar ilə nizamlanan bütün məsələləri əhatə edir. Belə ki, Qanunun 2.1.3-cü maddəsində göstərilir ki, Maliyyə hesabatlarının beynəlxalq standartları - Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən işlənib hazırlanmış, qəbul və ya təsdiq olunmuş Mühasibat Uçotunun Beynəlxalq Standartları, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Şərhlər üzrə Daimi Komitənin şərhləri, habelə Maliyyə Hesabatları Şərhi üzrə Beynəlxalq Komitəsinin müvafiq şərhləridir.

Deməli, həm kiçik sahibkarlıq subyektlərinə, həm də ictimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq subyektləri istisna olmaqla digər kommersiya təşkilatlarına öz hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə tərtib etməsinə dolayısı ilə qanunvericilikdə qadağalar nəzərdə tutulmayıb. Bunu nəzərə alaraq, oxucularımıza beynəlxalq sferada mühasibat uçotunun aparılmasında istifadə olunan uçot qaydaları üzrə əsas modelin ilkin əsaslarını təqdim etmək istəyirik.

Ümumiyyətlə, uçot qaydaları dedikdə, qanunlara, standartlara, rəsmi tövsiyyələrə və şərhlərə müvafiq hazırlanmış ilkin sənədlərin və uçot registrlərinin formasını müəyyənləşdirən qaydalar başa düşülməlidir. Mühasibat sferasında çalışan uçot işçiləri çalışmalıdırlar ki, maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə tərtib etməklə bərabər, mühasibat uçotu qaydalarına da beynəlxalq sferada qəbul olunan formada əməl etsinlər. Bunun üçün də təsərrüfat əməliyyatlarının baş verməsi faktını təsdiq edən ilkin sənədlərin hazırlanması və ya əldə edilməsindən başlayaraq maliyyə hesabatlarının hazırlanmasına qədər müəssisələrdə beynəlxalq uçotda qəbul edilən qaydalara uyğun uçot prosedurlarına əməl olunması vacibdir. Başqa cür desək, mühasib təsərrüfat əməliyyatlarının təhlil edilməsindən maliyyə hesabatlarının hazırlanmasına qədər 10-a yaxın prosedur mərhələlər üzrə mühasibat işini həyata keçirməli olur. Oxuculara bildirmək istəyirik ki, beynəlxalq uçota ilkin başlamaq üçün mühasiblərin nəzəri biliklərinin artırılmasında kömək olacaq aşağıda göstərilən izahlar sadə xarakter daşıyır.

Qısaca olaraq mühasibin həyata keçirməli olduğu uçotun aparılması mərhələləri aşağıdakılardan ibarətdir:

1. Mühasibat qeydləri üçün əməliyyatları və faktları müəyyən etmək (ilkin sənədləri toplamaq).

2. Əməliyyat jurnalını işləmək.

3. Baş kitabı işləmək.

4. Sınaq balansını hazırlamaq.

5. Düzəliş olanmalı qeydləri əməliyyat jurnalında əks etdirmək.

6. Düzəliş olunmuş (tam dəqiqləşdirilmiş) sınaq balansını hazırlamaq.

7. Maliyyə hesabatlarını hazırlamaq.

8. Baş kitabda müvəqqəti (gəlir və xərc) hesabları bağlamaq.

9. Hesabların bağlanmasından sonra ilin sonuna yekun sınaq balansını hazırlamaq.

10. Növbəti il üçün nəzərdə tutulan yeni Baş kitabda hesablar üzrə qalıqları əks etdirmək.

**1-ci MƏRHƏLƏ**

*Mühasibat qeydləri üçün əməliyyatları və faktları müəyyən etmək (ilkin sənədləri toplamaq).* Bu mərhələdə əsas məqsəd əməliyyat və faktları əks etdirən sənədlər əsasında informasiyaların toplanmasıdır. Mühasib mütləq olaraq maliyyə-təsərrüfat əməliyyatlarının baş verməsi barədə informasiyaları əldə etməlidir. Bu informasiyalar sənədlərdə əks olunur. Aydındır ki, sənədlərdə əməliyyatlar uçotda qəbul olunan ölçülərlə (tarix, məzmun, ölçü vahidi, miqdar, qiymət və sair) əks etdirilir və sənədlər informasiya daşıyıcısı rolunu oynayır. Sənəd mühasibin uçota başlaması üçün yeganə əsasdır.

**Davamı növbəti sayımızda**




## vergi taqvimi

| DEKABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24/31 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
20 dekabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2»və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# Hüquqi şəxsin filialının və nümayəndəliyinin uçot məlumatlarının onlayn dəyişdirilməsi

*Hüquqi şəxsin filialının, nümayəndəliyinin uçot məlumatlarının elektron qaydada dəyişdirilməsini əhatə edən bu xidmət www.e-taxes.gov.az, www.e-gov.az elektron ünvanında təqdim edilir. Bu xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış hüquqi şəxslər istifadə edə bilər.*

Xidmətin göstərilməsi üçün hüquqi şəxsin filialının, nümayəndəliyinin uçot məlumatlarında dəyişikliklərin edilməsi barədə ərizə tələb olunur. Yuxarıda göstərilmiş elektron ünvanda ərizədə olan məlumatlar interaktiv şəkildə vergi ödəyicisi tərəfindən sistemə daxil edilir. İnteraktiv xidmətlərin istifadəçilərinin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrəsi, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır.

Hüquqi şəxsin filialının, nümayəndəliyinin uçot məlumatlarının onlayn dəyişdirilməsi barədə ərizə İnternet Vergi İdarəsi portalının «Onlayn Kargüzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə «Yeni müraciət» düyməsi sıxılır və açılan pəncərədə:

➔ *«Kimə»* siyahısından - Vergilər Nazirliyi;

➔ *«Müraciətin növü»* siyahısından - Ərizə;

➔ *«Sənədin növü»* siyahısından - filialın məlumat dəyişikliyi ərizəsi seçilir və «Qəbul» düyməsi basılır.

Açılan ekranda hüquqi şəxsin filialının, nümayəndəliyinin əlaqə məlumatları və fəaliyyət növləri üzrə dəyişiklik həyata keçirilir. Öncə siyahıdan hüquqi şəxsin filialı, nümayəndəliyi seçilir. Əlaqə məlumatlarının sistemə daxil edilməsi üçün ekranın uyğun hissəsində «Əlavə et» düyməsi basılır. Bu halda siyahının əvvəlinə yeni boş sətir əlavə olunur. «Növü» sütununda siyahıdan əlaqə məlumatının (ev telefonu, iş telefonu, elektron ünvan və s.) növü seçilir. Siyahıdan ərazinin və ya mobil operatorun telefon kodu seçilir. Növbəti sütunda seçilmiş növə uyğun olaraq telefon nömrəsi və ya elektron ünvan barədə məlumat sistemə daxil edilir. Məlumat bazasına istənilən sayda telefon nömrəsi və elektron ünvan barədə məlumat daxil etmək mümkündür.

Fəaliyyət növünün sistemə daxil edilməsi üçün ekranın uyğun hissəsində «Əlavə et» düyməsi basılır. Bu halda siyahının əvvəlinə yeni boş sətir əlavə olunur. «Kodu» sütununda fəaliyyət növünün kodu sistemə daxil edilir. Sistem tərəfindən uyğun fəaliyyət növünün adı ekrana çıxarılır. Səhv fəaliyyət kodunun sistemə daxil edilməsinə icazə verilmir.

Məlumatın silinməsi həm əlaqə məlumatları, həm də fəaliyyət növlərində eyni qayda ilə aparılır. Bu məqsədlə hər iki halda «Seçim» qrafasında uyğun sətrin qarşısına işarə qoyulur və «Seçilmişləri sil» düyməsi basılır. Məlumat bazasından eyni vaxtda həm yeni məlumatları sistemə daxil etmək, həm də mövcud məlumatları silmək mümkündür.

Məlumat dəyişikliyi ilə bağlı bütün əməliyyatlar başa çatdıqdan sonra «İrəli» düyməsi basılır. Bu halda daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün «Qəbul» düyməsini basır. Əks halda, imtina etmək üçün «İmtina» düyməsi basılmalıdır.

Onlayn rejimdə məlumat dəyişikliyi barədə təqdim edilmiş ərizə üzrə məlumatlar Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə daxil edilmədiyi halda, vergi ödəyicisi tərəfindən növbəti məlumat dəyişikliyi ərizəsinin qeydiyyata alınmasına məhdudiyyət qoyulmuşdur. Vergi ödəyicisi tərəfindən daxil edilmiş telefon nömrələri müəyyən edilmiş saydakı rəqəmdən az ola bilməz. Hüquqi şəxsin filialının, nümayəndəliyinin fəaliyyət növü vergi ödəyicisinin fəaliyyət növləri arasında olmalıdır. Hüquqi şəxsin filialının, nümayəndəliyinin ən azı bir fəaliyyət növü olmalıdır və bu, əsas fəaliyyət kimi qeyd edilməlidir. Belə olmayan hallarda hüquqi şəxsin filialının, nümayəndəliyinin məlumat dəyişikliyi ərizəsinin icraya qəbul edilməsindən imtina edilir. Bu məsələlərə sistem tərəfindən avtomatik nəzarət olunur və ekrana müvafiq mesajlar çıxarılır.

**AYTƏN**

beynəlxalq panoram

# Qazaxıstan vergi güzəştlərinə yenidən baxacaq



Prezident Nursultan Nazarbayev 2014-2016-cı illər ərzində dövlət büdcəsi layihəsinin formalaşdırılması məsələlərinə həsr olunmuş müşavirədə çıxışı zamanı bildirib ki, hökumət mövcud vergi güzəştlərinə yenidən baxılmasına dair başlanılan işi davam etdirmək niyyətindədir: «Dövlətə birbaşa aid olmayan funksiyaları yerinə yetirən və dövlət mülkiyyətində olan obyektlərin özəl sektora verilməsini sürətləndirmək lazımdır».

Prezident, həmçinin, dövlət vəsaitlərinin xərclənməsinə nəzarəti və bu vəsaitlərin yersiz və səmərəsiz istifadəsinə görə məsuliyyəti artırmağı tapşırıb. Ümumilikdə, Qazaxıstanın ortamüddətli sosial və iqtisadi inkişaf planı, eləcə də 2014-2016-cı illərdə dövlət büdcəsinin formalaşdırılması prinsipləri təqdir edilib.

N.Nazarbayevin sözlərinə görə, mövcud şərait sayəsində ölkənin ÜDM-i bundan sonra da artacaq. İqtisadi artımın stimullaşdırılması üçün Milli Fondun vəsaitlərindən geniş istifadə olunacaq, həmin vəsaitlər infrastruktur obyektlərinin inşası və modernləşdirilməsinə yönəldiləcək. Bütün bunlar iqtisadiyyatın tikinti və digər sahələrinin inkişafı üçün əlavə imkanlar, eləcə də yeni iş yerləri yaradacaq.

Ölkə başçısı qüvvədə olan vergi güzəştlərinə yenidən baxılması ilə bağlı işləri davam etdirməyi tapşırıb: «Bu gün vergi inzibatçılığı ilə bağlı bir sıra həll olunmamış məsələlər var. Hesab edirik ki, çoxlu sayda tamamilə əsassız vergi güzəştləri vardır və onlara yenidən baxılmalıdır. Vergi güzəştlərinin səmərəliliyinin təhlili əsasında onların müvafiq sahələrin inkişafı üçün yenidən bölüşdürülməsi üzrə işi davam etdirmək lazımdır. Ümumiyyətlə, respublikada iqtisadiyyatın 20%-ə qədəri qeyri-leqal iqtisadiyyatın payına düşür. Dövlət büdcəsinin formalaşması strateji baxımından ölkənin «Qazaxıstan 2050» strategiyasında qarşıya qoyulan məqsədlərə istiqamətlənməlidir. Bunun üçün büdcə vəsaitlərindən səmərəli istifadə edilməli, eyni zamanda daxilolma mənbələri hər il artırılmalıdır».

# İsveçrə və ABŞ vergi sahəsində razılığa gəliblər

*ABŞ Ədliyyə Nazirliyindən bildirildiyinə görə, ABŞ və İsveçrə hökumətləri əmanətlərini İsveçrə banklarında gizlədən amerikalı müştərilərlə bağlı mübahisələrin həllinə dair razılığa gəliblər.*



Qeyd edilib ki, bu proqramın ehtiyacları üçün İsveçrə bankları dörd qrupa bölünüb. İlk qrupa 14 kredit müəssisəsi daxildir ki, onların barəsində ABŞ hökuməti artıq araşdırmalara başlayıb. Amerikalılar bu qrupa daxil olan bankları «bağışlamaq» niyyətində deyil.

Vergidən yayınmaqda varlı amerikalılara yardım etməkdə şübhəli bilinən maliyyə institutları ikinci kateqoriyaya daxil edilib. Belə banklar tənzimləyici orqanlarla məhkəməyə qədər saziş bağlaya bilərlər. Bu zaman onlar 2008-ci il avqustun 1-dək açılmış hesablarda olan vəsaitlərin ümumi həcminin 20%-i miqdarında cərimə ödəməli olacaqlar. 2009-cu ilin fevralına qədər açılmış hesablar üçün cərimənin məbləği 30%, sonrakı illərdə açılmış hesablar üçün isə 50% təşkil edəcək.

Üçüncü və dördüncü qrupa daxil olan banklar cərimə ödənişlərindən azad ediləcək. Onlar vergidən yayınanlara yardımda həlelik «şübhəli» bilinmirlər. Düzdür, üçüncü qrup maliyyə institutlarına onlarda amerikalıların qeydiyyatsız hesablarının olmadığını sübut etmək lazımdır. Dördüncü qrupa yerli milli banklar daxil edilib.

ABŞ baş prokurorunun müavini Ceyms Koul deyib ki, İsveçrənin bank sirri ilə bağlı qanunvericiliyindən istifadə etməyə çalışan və bəyan edilməmiş hesablara malik vətəndaşlar üçün «kölgədən çıxmaq» və ABŞ hökuməti ilə vergi problemlərini yoluna qoymaq vaxtı çatıb.

Proqrama əsasən, barələrində araşdırma aparılmayan banklar beynəlxalq əməliyyatlar barədə məlumatları tam açmalı, amerikalılar tərəfindən açılmış hər bir hesab üzrə ətraflı məlumat verməlidirlər. Bundan başqa, banklar belə hesabları bağlamalı və oradakı pul vəsaitlərini digər banklara köçürməlidirlər.

İsveçrə dünyanın ən iri «vergi limanı» hesab olunur. «Bloomberg»in məlumatına görə, bu ölkədəki bank hesablarında təxminən 2,2 trln. dollar həcmində vəsait saxlanılır. Hazırda ABŞ hökuməti vergidən yayınmaya yardımla bağlı 10-dan yuxarı İsveçrə bankı barəsində araşdırma aparır. Onların sırasında «Credit Suisse» və «Julius Baer» kimi banklar, habelə «HSBC Holdings» bankının yerli bölməsi də var. 2009-ci ildə İsveçrənin «UBS» bankı ABŞ hökuməti ilə saziş bağlayaraq, razılaşmanın ilkin şərti kimi 780 milyon dollar cərimə ödəmiş və öz müştərilərinin hesabları haqqında geniş məlumat vermişdi.

Xatırladaq ki, İsveçrə hökuməti ABŞ-ın təzyiqləri altında 2013-ci il fevralın 1-dən «Vergi məsələlərində beynəlxalq yardım haqqında» Qanun qəbul edib. Həmin qanuna əsasən, İsveçrə banklarının xarici müştərilərinin əməliyyatları barədə məlumatlar onların rezidenti olduğu ölkələrin hüquq-mühafizə orqanlarına təqdim edilə bilər.

Müştərilərin vergi qanunvericiliyinin pozulmasında şübhəli bilinməsi onların bank sirrinin açılmasına səbəb ola bilər. «Hüquq-mühafizə orqanlarının sorğusunda müştərinin qanunsuz fəaliyyəti dəqiq təsvir edilməlidir. Müştərilər haqqında informasiya almaq məqsədi ilə göndərilmiş sorğular qəbul edilməyəcəkdir», - İsveçrə hökumətinin məlumatında bildirilir.

ABŞ səndin 2013-ci ilin iyulunadək qəbulunda təkid edirdi, əks halda, İsveçrə banklarına qarşı cərimə sanksiyaları tətbiq etməklə hədələyirdi. ABŞ vergi orqanlarının diqqətindən yayındırmaqla vəsaitlərini xaricə çıxarmış vətəndaşları barədə məlumatların açılmasını tələb edir.

Avropa Birliyinin dövlət və hökumət başçılarının son sammitində banklardakı əmanətlər barədə avtomatik informasiya mübadiləsinə dair qərar qəbul olunub ki, bu da bank sirri anlayışını faktiki olaraq aradan qaldırır.

Avropa liderləri bu ilin sonunadək bank əmanətləri üzrə faiz gəlirlərindən verginin tutulması haqqında AB qanununun sərtləşdirilməsinə razılaşıblar. Bu, faktiki olaraq AB sərhədlərindən kənarda bank sirrinin mövcudluğunun sonu deməkdir. İkincisi, AB milli qanunvericiliklərdəki boşluqlardan istifadə edərək milyardlarla vəsaiti vergidən gizlədən iri konsernlərin bu təcrübəsinə son qoymaq niyyətindədir. 2013-cü ilin sonunadək bu barədə müvafiq təkliflər təqdim olunmalıdır.

# Belarusda ölkədən çıxışa 100 dollar vergi ödəniləcək

Tezliklə Belarus vətəndaşları ölkədən getmək üçün 100 dollar məbləğində vergi ödəməli olacaqlar. Belarus Prezidenti Aleksandr Lukaşenko bununla yerli vətəndaşların kütləvi ticarət məqsədilə digər ölkələrə çıxışının qarşısını almaq və həmin vəsaitləri istehsalçıya qaytarmaq niyyətindədir.

«Bizim vətəndaşlar hər il xarici ölkələrdən əmtəə gətirmək məqsədilə 3 milyard dollara qədər vəsaiti ölkədən çıxarır. Həmin məhsulları biz də istehsal edirik. Buna görə də mən tapşırmışam ki, nə idxal etməyindən asılı olmayaraq, ölkə kənarına çıxan hər vətəndaşdan 100 dollar səyyar rüsum tutulsun», - Prezident bildirib. Dövlət başçısı hesab edir ki, bu addımdan sonra belaruslar yerli istehsal məhsulları almağa başlayacaqlar. «Rüsum tətbiq edildikdən sonra vətəndaş bizim mağazadan öz soyuducumuzu alacaq və Avropa Birliyindən mənşəyi bilinməyən məhsulu ölkəyə daşımayacaq. 3 milyard dollar pulu aparıb onlara veririk, o ölkələrin ticarəti, istehsalatı inkişaf edir, biz isə burada çırpınırıq», - Belarus Prezidenti münasibətini bu tərzdə açıqlayıb.

# Ukraynada valyuta mübadiləsinə üçün vergi nəzərdə tutulur

Ölkənin Milli Bankı ilin sonunadək valyuta mübadiləsinə vergi tətbiq olunacağını istisna etmir. Bu barədə bankın Hüquq departamentinin direktoru Viktor Novikov bildirib.

«Ölkə Prezidentinin 2013-ci il üzrə fəaliyyət planlarında valyuta mübadiləsinə verginin tətbiqi nəzərdə tutulub. Bu təklifin müəllifi Gəlirlər və Yığımlar Nazirliyidir. Hazırda onlar müvafiq qanun layihəsi hazırlayırlar, onu razılaşdırmaq üçün digər nazirliklərə və idarələrə təqdim edəcəklər», - Novikov vurğulayıb.

Verilən məlumata görə, Ukrayna hökuməti nağd valyutadəyişmə əməliyyatlarından Pensiya Fonduna 10%-lik yığımın tətbiqinə dair qanun layihəsinin hazırlanması üzərində iş aparır. Yalnız bank depozitləri üzrə faizlərin ödənilməsi ilə bağlı valyutadəyişmə əməliyyatları, habelə fiziki şəxslərin fərdi valyuta köçürmələri yığımdan azad ediləcək. Fiziki şəxslərin valyuta kreditlərinin ödənilməsi əməliyyatları da istisna təşkil edəcək.

Qanun müəllifləri yeni normaların 2014-ci il yanvarın 1-dən tətbiq olunmasını təklif edirlər.

# Latviyada zərərli qidalara xüsusi vergi tətbiq olunacaq

Hökumət sağlamlıq üçün zərərli olan qidalara xüsusi vergi tətbiq etmək qərarına gəlib. Belə məhsulların «qara siyahısı»na çipsı, energetik və qazlı içkilər, müxtəlif şirniyyatlar daxildir. İdeyanı dietoloqlar dəstəkləyib, sıravi alıcılar isə bu məhsullar üçün qonşu ölkələrə getmək məcburiyyətində qalacaqlar.

Əgər yeni aksiz təsdiq olunarsa, o zaman yerli istehsalçılar və ixracatçılar hər kiloqram şirin, yağlı və duzlu məhsullara görə xəzinəyə əlavə vergi ödəyəcəklər.

«Qara siyahı»ya, həmçinin, tərkibində palma yağı və donuz piyi olan bütün məhsullar, tez hazırlanan şorbalar, çox duzlu kolbasa məmulatları daxildir.

Ekspertlər hesab edirlər ki, bir sıra məhsullarda qiymətlər cüzi dəyişsə də, kolbasa və sosiska məhsullarının bahalaşmasından qaçmaq mümkün olmayacaq. Kənd Təsərrüfatı Nazirliyində istehsalçıların öz bizneslərini Litva və ya Polşaya köçürməyə çalışacaqlarından ehtiyat edirlər.

krossvord



**Yuxarıdan aşağı:**

1.Ordubad rayonunda yerləşən tarixi abidə (türbə); 2.Kişi adı; 3.Yunan hərfi; 4.Günəş sistemində 8-ci planet; 5.Gürcüstanın şimal-qərbində şəhər; 6.«Ford Motor Company»nin super avtomobili; 7.«Min bir gecə» qəhrəmanlarından biri; 13.Latın hərfi; 14.Yunan mifologiyasında titan Uran və Geyanın oğlu; 15.Venesuelanın pul vahidi; 16.ABŞ-da ştat; 18.1947-ci ildə yaradılmış beynəlxalq foto agentliyi; 22.Ruminiyada şəhər; 23.Ağciyər tənəffüs yollarının iltihabi-allergik xəstəliyi; 24.Ölkəmizdə futbola nəzarət edən rəsmi qurum; 25.Mavi rəngə, xarakterik iyə və partlayıcı xassəyə malik oksigenin allatrop modifikasiyası.

**Soldan sağa:**

1.Kiçik Qafqazın dağətəyi ərazisində ekstruziv günbəz-dağ; 5.Nizaminin «beşliyi»; 8.Müəssisə və təşkilatların fəaliyyətlərini bir adla ifadə etmək üçün yaddaşlarda qalmasına təsir edə biləcək simvol görüntüsü; 9.Cənubi İraqda şəhər; 10.Azərbaycan xalq şairinin adı. Nəsr, dramaturgiya, publisistika və tərcümə sahəsində də fəaliyyət göstərmişdir (1924-2007); 11.Futbolda vəziyyət; 12.Fransa yazıçısının soyadı. «İndiana», «Valentina», «Konsuelo» əsərlərinin müəllifi. Əsl adı Avrora Düpen (1804-1876); 15.Malinin paytaxtı; 17.ABŞ-ın 40-cı prezidenti; 19.Yay fəslində qışda istifadə etmək məqsədilə tərəvəzlərdən hazırlanan salat; 20.Şahmatda vəziyyət; 21.Məşhur İsveç kvarteti; 26.Azərbaycan şairi, məşhur siyasi və ictimai xadimi. Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş veziri; 27.Populyar müğənnilərdən birinin adı, «Leyli və Məcnun» operasında Leyli rolunun mahir ifaçılarından olmuşdur; 28.Daşınmaz əmlak və digər mülkiyyətdən mütəmadi əldə olunan gəlir; 29.Cənubi Afrika Respublikasının ilk qaradərili prezidenti (1918-2013), Nobel Sülh Mükafatı laureatının soyadı.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.«Aydın»; 2.Davos; 3.Ledi; 4.Amulet; 5.Xala; 6.Nabukko; 7.Maasdam; 13.Qış; 14.Yen; 15.Tangens; 16.Yorkşir; 18.Tarxan; 22.Derbi; 23.Makam; 24.Eney; 25.Ələt.

**Soldan sağa:** 1.Abdulla *(Şaiq)*; 5.Xanım; 8.Davudlu; 9.Lobya; 10.Nisə *(Qasımova)*; 11.Ver; 12.Akid; 15.Taymır; 17.Delorm *(Filiber)*; 19.Nərd; 20.Qar; 21.Adəm; 26.Elşən; 27.Xolerik; 28.Saray; 29.Natrium.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Yeniyetmə güləşçilərimiz Ukraynadan 16 medalla qayıtdı

Ukrayna Azərbaycanlıları Konqresinin Kiyev şəhər təşkilatının və Heydər Əliyev adına Ukrayna-Azəbaycan təhsil, elm, mədəniyyət və idman Mərkəzinin təşəbbüsü ilə Kiyevdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə güləş üzrə yeniyetmələr arasında keçirilən V beynəlxalq turnir başa çatıb.

Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətinin yaydığı xəbərə görə, turnirdə Azərbaycan və Ukrayna ilə yanaşı, Belarus, Rusiya, Moldova, Almaniya, Özbəkistan və Rumıniya komandaları iştirak edib və mükafatlar uğrunda ümumilikdə 360 güləşçi yarışıb.

Turnir başlanmazdan əvvəl onun təşkilatçıları, Azərbaycanın Ukraynadakı səfirliyinin əməkdaşları, yarışların iştirakçıları, diasporumuzun nümayəndələri Kiyevdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan bağdakı abidəsi önünə tər çiçəklər düzüb, xatirəsini ehtiramla yad ediblər.

Yarışda iştirak edən sərbəst güləş üzrə yeniyetmələrdən ibarət yığma komandamızın üzvləri 6 qızıl, 4 gümüş və 6 bürünc medal qazanıb. Güləşçilərimizdən Əfqan Xaşalov (54 kq), Mahir Əmiraslanov (58 kq), Teymur Məmmədov (69 kq), Hacımurad Maqomedsaidov (76 kq), Maqomedrasul Qazımaqomedov (85 kq) və İqbal Hacızadə (100 kq) bütün rəqiblərini üstələyərək turnirin qızıl medallarına sahib olublar.



Pənah İlyaslı (63 kq), Orxan Həsənov (85 kq), Ülkər Babayeva (40 kq) və Ləman Qurbanova (56 kq) yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Babək Hüseynov (42 kq), Əlabbas Rzazadə (46 kq), Füzuli Hüseynov (54 kq), Haldun Məmmədov (58 kq), Türkan Nəsirova (46 kq) və Leyla Qurbanova (52 kq) qazandırıblar.

# Ağır atletika üzrə Beynəlxalq Bakı turniri başa çatıb

**Azərbaycan milli komandası Bakıda keçirilən Beynəlxalq Ağır Atletika Federasiyasının IWF Qran-Prix - II Beynəlxalq Bakı Kubokunun mütləq qalibi olub.**

Yarışda 24 ölkədən 60 atlet körpücük üzərinə çıxıb. İdmançılar 4 çəki dərəcəsində - qadınlar 53 və 58 kq, kişilər 62 və 69 kq-da mübarizə aparıblar.

Qadınların komanda yarışında millimizin üzvləri 3 qızıl, 2 gümüş medalla turnirin qalibi olublar. İkinci pillədə 4 medalla (2 qızıl, 2 gümüş) Çin, üçüncü yerdə isə 3 medalla (1 qızıl, 2 gümüş) Rumıniya atletləri qərarlaşıblar.

Kişilərdən ibarət komandamız ümumilikdə 9 medal (6 qızıl, 3 gümüş) qazanmaqla rəqiblərini xeyli üstələyib. İkinci pillədə 3 medalla (2 gümüş, 1 bürünc) Rusiya, üçüncü yerdə isə 1 gümüş medalla Polşa atletləri qərarlaşıblar.

# Futbol üzrə dünya çempionatının püşkü atıldı

**Dekabrın 6-da Braziliyanın Atlantik okeanı sahilində yerləşən Kosta-fu-Sauipe kurort şəhərciyində 2014-cü ilin dünya çempionatının final turniri üçün püşkatma mərasimi keçirilmişdir.**

32 milli komanda səkkiz qrupa bölünmüşdür. Çempionat iyunun 12-də San-Pauluda başlanacaq, qrup mərhələsi iyunun 26-dək davam edəcəkdir. Hər qrupdan iki ən yaxşı komandanın iştirak edəcəyi pley-off mərhələsi iyunun 28-də başlanacaqdır. İyulun 13-də Rio-de-Janeyrodakı «Marakana» stadionunda final görüşü keçiriləcəkdir.

**Qrup mərhələsi üçün püşkatmanın nəticələri belədir:**

*A qrupu* - Braziliya, Xorvatiya, Meksika, Kamerun

*B qrupu* - İspaniya, Niderland, Çili, Avstraliya

*C qrupu* - Kolumbiya, Yunanıstan, Kot-d`İvuar, Yaponiya

*D qrupu* - Uruqvay, Kosta-Rika, İngiltərə, İtaliya

*E qrupu* - İsveçrə, Ekvador, Fransa, Honduras

*F qrupu* - Argentina, Bosniya və Herseqovina, İran, Nigeriya

*G qrupu* - Almaniya, Portuqaliya, Qana, ABŞ

*H qrupu* - Belçika, Əlcəzair, Rusiya, Cənubi Koreya

Dünyanın yeddi ən güclü komandası və turnirin ev sahibi - Braziliya yığması birinci səbətə daxil edilmişdir. Qalan iştirakçılar coğrafi prinsipə görə bölüşdürülmüşlər - Avropa səbətinə doqquz komanda, Afrika səbətinə isə yeddi komanda düşmüşdür. Bir qrupda eyni qitənin ikidən çox komandasının olmasına yol verilmədiyi üçün püşkatma nəticəsində «artıq» qalmış Avropa yığması Cənubi Amerika nümayəndəsinin başçılıq etdiyi qrupa daxil edilmişdir.

mozaika

*Avstriya avtonəqliyyatçıları dünyada ilk dəfə olaraq avtomobil yollarında asfalt örtüyündə temperaturun dəyişkənliyini göstərən nişanlardan istifadə etmək qərarına gəliblər.*

texnologiya




«Sehrli nişanlar»

Alp dağlarından keçən magistral yollarda sınaqdan keçiriləcək layihəyə əsasən, xüsusi məhluldan hazırlanmış rəng örtüyü mənfi temperaturda mavi və qırmızı-bənövşəyi rəng alır. Bu isə həmin yolda hərəkət edən sürücülərin vaxtında ehtiyatlı və diqqətli hərəkət etməsi üçün xəbərdarlıq siqnalı olacaqdır.

Avstriyanın magistral yollarını idarə edən ASFİNAQ şirkətinin verdiyi məlumata görə, temperaturdan asılı olaraq rəngini dəyişən nişan və zolaqlar bütün dünya üzrə avtonəqliyyat sahəsində ilk təcrübə olacaqdır. Özünü doğruldacağı təqdirdə, Avstriya şirkətlərindən biri tərəfindən hazırlanmış həmin məhluldan geniş istifadə edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, termoxromiyadan (temperatura həssas rənglərdən istifadə) ilkin olaraq istilik göstəriciləri üçün (xüsusi kofe və çay fincanları), son dövrlərdə isə soyuducu qurğularda tətbiq olunur.

«Sehrli nişanlar»dan ilk dövrlərdə körpülərdə, mailiyin və döngələrin çox olduğu yollarda istifadə ediləcək, sonra isə kütləvi tətbiqinə başlanacaqdır.

ELAN



«Vergilər» qəzetinə 2014-cü il üçün abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **20 manat 80 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22

sağlam həyat tərzi

# Soyuq havalarda xəstəliklərə tutulmamaq üçün...

*İmmunitetin güclü olması insanları bir çox xəstəliklərdən qoruyur. Xüsusilə soyuq havalarda qrip, zökəm və digər bu kimi xəstəliklərə tutulmamaq üçün güclü immunitetə sahib olmaq çox vacibdir.*

Əksər hallarda immun sistemini qaldırmaq üçün dərman preparatlarından istifadə olunur. Həmin preparatların qəbulu isə insan orqanizminə faydalı olduğu qədər də ziyanlıdır.

İmmuniteti möhkəmləndirməyin ən asan yolu sağlam həyat tərzidir. Mütəxəssislərin fikrincə, stressdən uzaq olmaq, düzgün qidalanmaq, zülal və yağ istifadəsinə fikir vermək, təmiz hava gəzintisinə çıxmaq, məşq etmək, zərərli vərdişləri tərgitmək insanı qış xəstəliklərindən mühafizə edir və orqanizmi möhkəmləndirir.

Bunun üçün ilk növbədə qış aylarında pomidor, xiyar, bibər kimi qışda təbii yolla yetişməyən tərəvəzlərlə qidalanma məhdudlaşdırılmalıdır. Çay və qəhvə yerinə C vitamini tərkibli cökə, adaçayı (sürvə), itburnu kimi bitki çayları içilməlidir.

Gündə 1,5-2 litr maye qəbul edilməsi, nizamlı şəkildə gimnastika ilə məşğul olmaq da immuniteti gücləndirir. Əsasən C vitamini ilə zəngin olan sitrus bitkiləri - kivi, portağal, gül kələm, ispanaq kimi meyvə və tərəvəzlərə, buxarda bişirilmiş və ya qaynadılmış qidalara üstünlük verilməlidir. Həftədə iki dəfə balıq yemək, həmçinin balıq yağı qəbul etmək də məsləhət görülür.

Soyuq aylarda sümük və diş sağlamlığı üçün lazımlı olan D vitamininə olan ehtiyacı ödəmək üçün günəşli günlərdə təmiz havada gəzmək məsləhətdir. Eyni zamanda, B qrupu vitaminləri ilə zəngin olan paxlalı bitkilərlə qidalanmaq zəruridir.



*2 alma, 2 kök və 1 çuğundurun şirəsini 1 yemək qaşığı limon suyu ilə qarışdırıb gündə 3-4 dəfə yeməkdən 20 dəqiqə əvvəl qəbul etmək immuniteti möhkəmləndirmək üçün ən təsirli vasitələrdəndir.*

maraqlı

# 14,2 milyon dollara satılan kitab

**ABŞ-ın Massaçusets ştatında nəşr olunmuş zəbur surələri kitabı (Bay Psalm Book) Nyu-Yorkda, Sotheby's auksionunun hərracında kitablar üçün dünya rekordu sayılan qiymətə satılmışdır.**

Hərracın rəsmi saytında dərc edilmiş məlumata görə, adı bildirilməyən alıcı «Bay Psalm Book» kitabına rekord məbləğ - 14 milyon 165 min dollar ödəməyə razılaşmışdır.

1640-cı ildə Britaniyadan Amerikaya köçmüş sakinlər tərəfindən Kembric şəhərində nəşr edilmiş «Bay Psalm Book» ABŞ-da mətbəə üsulu ilə çap olunmuş ilk kitab sayılır. Nəşrin özünəməxsusluğu ondan ibarətdir ki, burada ivrit dilində yazılmış mətnlərin hazır variantlarının mövcud olmasına baxmayaraq, kolonistlərin özlərinin tərcüməsi verilmişdir.

1638-ci ildə Kembricdə açılmış mətbəədə bu kitabın 1700 nüsxəsi çap edilmişdi. Hazırda onlardan yalnız 11 ədədi qalmışdır. Hərracda satılmış nüsxə Bostondakı Old-Saut kilsəsinə məxsus idi. Kitabda çoxlu mətbəə xətaları və tərcümə qüsurları olmasına baxmayaraq, o, ABŞ-ın milli identikliyinin rəmzi kimi müstəsna əhəmiyyət kəsb edir.

Qeyd edək ki, indiyə qədər ən bahalı mətbu nəşr «Amerikanın quşları» kitabı sayılırdı. Con Ceyms Odübonun illüstrasiyalar çəkdiyi həmin 4 cildlik kitab 2010-cu ildə 11,5 milyon dollara satılmışdır.

Müdriklər deyib ki...

*«Yaxşı iş görüb əziyyət çəksən, əziyyət keçəndən sonra yaxşılıq qalacaq; pis iş görüb ləzzət çəksən, ləzzət gedəndən sonra pislik qalacaq».*

*Nəsirəddin Tusi (1201-1274)*

